**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASINDA MƏNƏVİ DƏYƏRLƏR (ETNOQRAFİK TƏDQİQAT)

İxtisas: 5102.01 Etnoqrafiya və etnologiya

Elm sahəsi: Tarix

İddiaçı: **Şəhla Tofiq qızı Nuruzadə**

Elmlər doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun «Müasir dövr etnoqrafiyası» şöbəsində yerinə yetirilmişdir.

Rəsmi opponentlər:

Tarix elmləri doktoru, professor
**Fəzayıl İmran oğlu Vəliyev**

Tarix elmləri doktoru, professor
**Adhamjon Azimbayeviç Aşirov**

Tarix elmləri doktoru, professor
**Alişer Xudayberdiyeviç Doniyorov**

Tarix elmləri doktoru, dosent
**Güllü Yoloğlu qızı Məmmədli**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: ____________

Tarix elmləri doktoru, professor
**Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: ____________

Tarix elmləri doktoru, dosent
**İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: ____________

Tarix elmləri doktoru, dosent
**Solmaz Səttar qızı Məhərrəmova**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Mənəvi dəyərlər çox geniş və çoxcəhətli bir anlayışdır. Tədqiqat işində əsas məqsəd mənəvi dəyərlərin etnoqrafik baxımdan araşdırılmasıdır. Müasir dövrdə qloballaşma prosesləri, eyni zamanda cəmiyyətdə milli hisslərin və milli-mənəvi dəyərlərə tələbatın yüksəlməsi mənəvi dəyərlər probleminin tədqiqini aktual edir. Xalqın mmənəvi dəyərləri onun tarixi mərhələləri və s. haqqında məlumat verə bilər.

Etnoqrafiyanın tədqiqat sahələrindən birini mənəvi dəyərlər sistemi təşkil edir. Dissertasiyada "mənəvi dəyərlər" anlayışı sözsüz ki, "ənənəvi dəyərlər", "etnomənəvi dəyərlər" aspektində nəzərdə tutulur.

Milli-mənəvi dəyərlərin qorunub saxlanması və inkişafı müasir dövrün vacib məsələlərindən biridir. Etnoqrafları etnik dəyərlərin müasir dövrdə maddi, mənəvi və sosionormativ mədəniyyətdə necə fəaliyyət göstərməsi, bizim nələri itirdiyimiz və onları necə bərpa etməyimiz kimi suallar narahat edir. Etnomədəni irsin ekologiyası problemi müasir dövrün ən çox müzakirə olunan problemlərindəndir. Etnomədəni xüsusiyyətlər və ya milli identikliyin əlamətləri – dil, sosionormativ mədəniyyətin elementləri, milli psixologiya, ənənəvi etiket qaydaları, ailə-məişət münasibətləri və s. müvafiq etnomədəni mühitdə mənimsənilir.

Müasir dövrdə milli mədəniyyətdən qlobal mədəniyyətə keçid prosesləri, Qərb kütləvi mədəniyyətinin xalqın ənənəvi mədəniyyətinə müdaxiləsi, dünya informasiya məkanının, virtual dünya və virtual insanın yaranması prosesinin milli mədəniyyətin, milli-mənəvi dəyərlərin transformasiyaya uğraması təhlükəsi ənənəvi mədəniyyətin tədqiqini aktuallaşdırır. Müasir cəmiyyətdə qloballaşma prosesləri heç də birmənalı qarşılanmır. Belə bir şəraitdə xalqın dilinin və mədəni identikliyinin, özünəməxsusluğunun qorunub saxlanması məsələsi problem kimi ortaya çıxır. Tədqiqatçıların əksəriyyəti "etnosa" identikliyin özünü hər şeydən əvvəl qrupdaxili davranış normalarında göstərdiyini hesab edir. *"Bu normalar dil, psixoloji, mənəvi, estetik, dini və s. normalardan ibarətdir. Etnosa identikliyin başqa*

*göstəriciləri kimi onun ümumi tarixə malik olmasını, ümumi rəmzin və ümumi ərazinin ətrafında birləşməsini qeyd etmək olar. Lakin ayrı-ayrı fərdlər, yaxud insan qrupları bu əlamətlərdən hər hansı birinə malik olmasa da, özlərini müəyyən etnosa identifikasiya edirlər"* [1].

Müasir dövrdə ənənəvi dəyərlərin qorunması ən çox müzakirə olunan problemlərdən biridir. Prezident İlham Əliyev öz çıxışlarında dəfələrlə bu məsələyə toxunmuşdur: *"Biz, əlbəttə ki, ümumbəşəri dəyərləri bölüşürük, Avropa dəyərlərinə böyük hörmətlə yanaşırıq. Ancaq bizim üçün milli dəyərlər, Azərbaycan dəyərləri hər şeydən üstündür"*[2].

Ölkədə təkcə dominant xalq olan azərbaycanlıların deyil, digər xalqların da ənənəvi dəyərlərin qorunmasını təmin etmək üçün azərbaycançılıq və multikulturalizm siyasətinin perspektivlərini, eləcə də bu siyasətin uğurla həyata keçirilməsini şərtləndirən, xüsusilə milli amilə əsaslanan faktorlar nəzərə alınmalıdır. Bu ideologiyanın formalaşmasına dövlətçilik ənənələri, xalqın tolerantlıq kimi dəyərə sahib olması təsir etmişdir. Bu dəyərlər də, öz növbəsində multikulturalizm siyasətinin həyata keçirilməsinə imkan verir. Multikulturalizm mədəni fərqlərin qorunub saxlanmasına və inkişafına istiqamətlənmiş siyasət və bu siyasəti əsaslandıran modeldir. Multikulturalizm modelinin müvəffəqiyyətlə həyata keçirilməsinin əsas şərtlərindən biri ölkə ərazisində yaşayan bütün xalqların bir-birinin mədəniyyətinə qarşılıqlı anlaşmaya və hörmətə əsaslanmasıdır. Bütün bu proseslərə aydınlıq gətirmək üçün azərbaycanlıların milli psixologiyasının və tolerantlıq ənənələrinə təsir edən amillərin mənəvi dəyərlər baxımından araşdırılması vacib və müasir dövrün aktual məsələlərindən biridir.

Azərbayacnlıların milli-mənəvi dəyərlərinə vurulan ən böyük zərbələrdən biri ölkə ərazisinin Şimali və Cənubi Azərbaycanın parçalanması, azərbaycanlıların bir-birindən fərqli mədəniyyətin təsiri

---

[1] Nuruzadə, Ş.T. Etnik münaqişələr. Bakı: Mütərcim. - 2015. - s. 7.

[2] Azərbaycan Respublikası prezidenti İlham Əliyevin Novruz bayramı münasibətilə ümumxalq şənliyində nitqi 19 mart 2013, 13:40 [Elektron resurs] https://president.az/az/articles/view/7671

altına düşməsi oldu. Azərbaycanda (şimali) sovet hakimiyyətinin qurulması xalqın milli mədəniyyətinin yad təsirə məruz qalması ilə nəticələndi. Lakin bütün bunlara baxmayaraq xalq mədəniyyətini, mədəni irsini qoruyub saxlaya bildi. Azərbaycanın Sovet İttifaqının tərkibində olduğu 70 il müddətində sovet milli siyasətinə əsasən ənənəvi mənəvi mədəniyyətə qarşı aparılan kampaniya, "sovet dəyərləri"nin və bu dəyərlərin daşıyıcısı olan "sovet adamı"nın formalaşdırılması siyasəti də uğursuz oldu. Sovet hakimiyyətinin süqutu ilə ənənəvi dəyərlərə qayıdış prosesləri baş verdi. Bu proseslərin azərbaycanlıların mənəvi dəyərlərinə təsiri və milli özünüdərk, milli özünəqayıdış proseslərinin tədqiqi də mövzunun aktuallığını artırır. Etnodil, milli musiqi, folklor, adət-ənənələr, xalq və dini bayram və mərasimlər və s. etnosun özünəməxsusluğunu qoruyub saxlayan mənəvi dəyərlərdir. Sovet hakimiyyətinin ilk illərindən ittifaqa daxil olan respublikaların xalqlarının özünəməxsusluqlarının aradan qaldırılması və "ümumsovet dəyərləri"nin formalaşdırılması siyasəti yeridildi və müəyyən dərəcədə olsa da buna nail olundu.

Azərbaycanın Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) tərkibində olduğu müddətdə sovet milli siyasəti nəticəsində milli-mənəvi dəyərlər kimi problemlər uzun müddət etnoqrafların diqqətindən kənarda qalmış, "unudulmuş", "qadağan olunmuş" problemlər sırasına daxil olmuşdur. XX əsrin sonlarında Azərbaycanda yenidən müstəqil dövlətçiliyin bərpa olunması "diqqətdən kənarda qalmış" bir çox mövzuların, ilk növbədə sovet milli siyasətinə "təhlükə" hesab olunan problemlərin araşdırılması üçün münbit şərait yaratdı. Qeyd etmək lazımdır ki, milli-mənəvi dəyərlər problemi etnoqrafik baxımdan araşdırılmasa da, həmin dəyərləri, mədəni irsi özündə yaşadan maddi və mənəvi mədəniyyət etnoqraflar, pedaqoqlar, onun ruhunu və dünyagörüşünü əks etdirən foklor və mifologiya isə foklorşünaslar tərəfindən araşdırılmışdır. Bütün bu tədqiqatlar hazırda xalqın milli-mənəvi dəyərlərini etnoqrafik/etnoloji baxımdan araşdırmaq üçün zəngin elmi mənbədir. Milli-mənəvi dəyərlərin tarixi müqayisəli təhlili və eləcə də, sovet hökumətinin "sovet dəyərləri"ni formalaşdırmaq siyasətinin və müstəqillik illərində xalqın "özünüdərk" və "özünəqayıdış" proseslərinin araşdırılması müasir

dövrdə milli-mənəvi dəyərlərinin xalq və dövlətçilik üçün əhəmiyyətinin müəyyən edilməsinə imkan verir. Qarabağ müharibələrində xalqın milli-mənəvi dəyərlərinin təzahürü probleminin araşdırılması da xalqın müharibə dövründə bir daha nümayiş etdirdiyi milli birliyin, azərbaycançılıq, dövlətçilik məfkurəsinin möhkəmlənməsi baxımından aktualdır.

Müasir dövrdə münaqişələr də dövlətin milli-mədəni irsin qorunması və təbligi, onun bəşəri irslə zənginləşməsi sahəsində fəaliyyətinin öyrənilməsini daha da aktuallaşdırır. Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində milli-mədəni irsinin məhv edilməsi və tarixin saxtalaşdırılması dövlətin bu irsin qorunması və onların məhz azərbaycanlılara məxsus olmasının beynəlxalq birliyin diqqətinə çatdırılması üçün həyata keçirdiyi siyasəti məqsədyönlü etdi. İkinci Qarabağ müharibəsində Ermənistan üzərində Azərbaycanın qələbəsindən sonra Azərbaycan dövlətinin qarşısında duran əsas məsələlərdən biri işğal müddətində ermənilər tərəfindən dağıdılmış xalqın mənəvi irsinin bərpasıdır.

Milli-mənəvi dəyərlər xalqın milli ruhudur. Milli ruh öz növbəsində cəmiyyətin inkişaf etməsində, gənc nəslin vətənpərvər, adət-ənənələrə sadiq şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır. Prezident İlham Əliyev öz çıxışında bu məsələnin dövlətçilik ənənələrinin qorunub saxlanmasında mühüm dəyər kəsb etdiyini bildirmişdir: *"Biz elə etməliyik ki, gənc nəsil milli ruhda böyüsün, vətənpərvər, Vətənə sadiq olsun, Vətən üçün işləsin, çalışsın. Bunu etmək üçün güclü vətənpərvərlik hissi və milli ruh lazımdır. Milli ruhun da təməlində milli ənənələr, musiqi, ədəbiyyat, ana dili dayanır"*[3]. Qarabağ müharibələrində xalqın qəhrəmanlığı, vətənin erməni işğalından azad edilməsi üçün bayrağı, dövlətçiliyi, Vətən torpağını uca tutmaları da milli ruhun, milli psixologiyanın xalqın əsrlər boyu formalaşmış milli-mənəvi dəyərlərinin vacib bir komponenti olduğunu təsdiqlədi. İşağl olunmuş ərazilərdə ermənilərin tarixi saxtalaşdırma cəhdlərinə, toponimlərin, maddi və mənəvi mədə-

---

[3]İlham Əliyev. Milli-mənəvi dəyərlər [Elektron resurs].URL: https://ilhamaliyev.preslib.az/docs/i20.pdf

niyyət nümunələrinin "onlara" məxsus olması haqqında yalançı iddialarına cavab vermək və mədəni irsimizə, torpaqlarımıza sahibliyi bir daha göstərmək üçün milli-mənəvi dəyərlərin araşdırılması, etnoqrafik xüsusiyyətlərinin tarixi-müqayisəli tədqiqi, onların tarixi inkişaf mexanizmini göstərmək hazırkı dövrün mühüm və aktual məsələlərindən biri kimi Azərbaycan etnoqrafiya elminin qarşısında dayanır. Qarabağ müharibələrində milliyətindən asılı olmayaraq Azərbaycan vətəndaşı olan hər bir döyüşçünün döyüş əzmi, torpağa, Vətənə, dövlətçiliyə, bayrağa, şəhidliyə, qaziliyə münasibəti, bu dəyərlər uğrunda döyüşlərdə onların və dinc əhalinin, eləcə də ölkədən kənarda yaşayan azərbaycanlıların milli həmrəyliyi, döyüşdə olan əsgərlərə, onların ailə üzvlərinə maddi və mənəvi yardımların edilməsi və s. bütün bunların mənəvi və tarixi əsaslarının araşdırılmasını aktual edir. Sözsüz ki, bu keyfiyyətlər xalqın etnopsixologiyası, tarixən formalaşmış mənəviyyatı, milli xarakteri ilə sıx bağlıdır. Dissertasiya işinin bölmələrində mənəvi və maddi mədəniyyətin ayrı-ayrı sahələri ilə əlaqəli olaraq bütün bu sualların cavabının araşdırılması nəzərdə tutulmuşdur. Qeyd etmək lazımdır ki, xalqın yardımsevərlik, xeyirxahlıq, tolerantlıq kimi xüsusiyyətləri dünyada baş verən digər ziddiyyətli problemlər zamanı da özünü göstərir.

"Azərbaycan Respublikasında mənəvi dəyərlər (etnoqrafik tədqiqat)" mövzusu nəzəri cəhətdən indiyədək ayrıca tədqiqat obyekti olmamışdır. İlk dəfə olaraq problemin elmi-nəzəri və ümumiləşdirilmiş araşdırılmasına təşəbbüs edilmiş, azərbaycanlıların müasir dövrədək gəlib çatmış milli-mənəvi dəyərlərinin tarixi-müqayisəli tədqiqi aparılmışdır.

Problemin ayrı-ayrı aspektləri etnoqrafik baxımdan bir sıra tədqiqatçı tərəfindən tədqiq edilmişdir. Dəyərlər nəzəriyyəsi H.Rikkert[4], M.Veber[5], N.Smelzer[6], Ş.Şvars[7] və digər alimlər tərəfindən

---

[4] Риккерт, Г. Науки о природе и науки о культуре / Г. Риккерт - Москва: Республика, - 1998, - 413 с.
[5] Вебер, М. Критические исследования в области логики наук о культуре. Избранные произведения / М.Вебер - Москва: Прогресс, - 1990. - 808 с.
[6] Смелзер, Н. Социология: пер. с англ. / Н. Смелзер - М.: Феникс, - 1994. - 688 с.

müxtəlif aspektlərdə tədqiq olunmuşdur. Tarixçi Z.Göyalpın[8] tədqiqatları da dəyərlərə nəzəri yanaşmada mühüm əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, onların əsas tədqiqat obyekləri mənəvi, əxlaqi dəyərlər, mədəniyyət, dünyagörüşü anlayışları olmuşdur. Həmin tədqiqatçıların dəyərlər probleminə nəzəri yanaşmaları azərbaycanlıların milli-mənəvi dəyərlərinin, əsasən də, dəyərlər sisteminin formalaşmasına etnoloji yanaşmaya da imkan verir. Müasir dövrdə azərbaycanlıların milli mədəniyyətində qorunub saxlanmış ənənəvi dəyərlərin də tarixi müqayisəli tədqiqi baxımından bu nəzəriyyələr mühüm əhəmiyyət kəsb edir.

Mənəvi dəyərlərə etnopsixoloji yanaşma Ş.Nuruzadənin[9] monoqrafiyalarında öz əksini tapmışdır. Həmin yanaşmada etnopsixoloji amilin xalqın dini və ailə dəyərlərində, şəriət, xalq və dini bayram və mərasimlərdə, adi, kütləvi və ictimai şüur səviyyəsində dinə inam dərəcəsində, milli ziyalıların din və ateizm məsələlərinə münasibətlərində öz əksini tapdığı göstərilmiş, sovet hökumətinin dinə və xalqın milli düşüncə tərzinə qarşı apardığı mübarizənin “sovet dəyərləri ”nin formalaşmasına təsir dərəcəsi tədqiq edilmişdir. Azərbaycanlıların milli-mənəvi dəyərlərinin tərkib hissəsi olan din H.Məmmədov[10] tərəfindən tədqiq olunmuşdur. Tədqiqat işində Azərbaycan SSR-də çoxsaylı mədəni mühitin konstitusion əsasları və milli-mədəni siyasət, dövlət-din münasibətləri və etnokonfessional mühit kimi məsələlər öz əksini tapmışdır. Lakin bu tədqiqat işində azərbaycanlıların dini dəyərlərinə nəzəri yanaşma tədqiqat obyekti olmamışdır.

---

[7] Шварц, Ш. Культурные ценностные ориентации: природа и следствия национальных различий. // - Москва: Психология. Журнал Высшей школы экономики, - 2008. Т. 5, № 2. С. 37–67.

[8] Göyalp, Z. Türkçülüyün Əsasları / Z.Göyalp; tərcümə: Elman Mustafa – Bakı: Xəzər Universiteti, - 2010, - 208 s.

[9] Nuruzadə, Ş. XX əsrin 20-30-cu illərində Azərbaycanda etnokonfessional şərait / Ş.T.Nuruzadə - Bakı: Xəzər Universiteti, - 2010. - 218 s.: Nuruzadə, Ş.T. Etnik münaqişələr / Ş.Nuruzadə - Bakı: Mütərcim, - 2015. - 132 s.

[10] Məmmədov, H.N. Azərbaycan SSR-də milli-mədəni və dini siyasətin siyasi-hüquqi əsasları. Dərs vəsaiti / H.N.Məmmədov – Bakı: Mütərcim, – 2017. - 80 s.

Etnoqraf Q.Qədirzadə[11] tərəfindən Azərbaycan etnoqrafiyasının ən aktual problemlərindən biri – mənəvi dəyərlər araşdırılmışdır. Monoqrafiyada mənəvi dəyərlər türkçülük nöqteyi-nəzərindən tədqiq olunmuş, azərbaycanlıların milli-mənəvi dəyərlərini özündə yaşadan bayramlar, adət-ənənələr təsviri cəhətdən öz əksini tapmışdır. Q.Qədirzadənin monoqrafiyası xalqın milli-mənəvi irsi olan adət-ənənələrinin tədqiqi üçün dəyərli mənbədir.

Mənəvi mədəniyyətin ayrı-ayrı aspektləri – xalq bayram və mərasimləri etnoqraflar – H.A.Quliyev[12], G.Yoloğlu[13], M.Allahmanlı[14] və digərləri tərəfindən tədqiq olunmuşdur. Ailə-məişət münasibətləri etnoqrafik baxımdam Q.Qeybullayev[15], N.M.Quliyeva[16], Ş.T.Bünyadova[17] və M.Paşayeva[18], nöqteyi-nəzərindən isə dinşünas R.Əliyev[19] tərəfindən araşdırılmışdır. Etnoqraf M.Paşayevanın[20]

---

[11] Qədirzadə, Q. "Milli-mənəvi dəyərlərimiz: bayramlar, mərasimlər, adətlər, münasibətlər / Q.Qədirzadə - Naxçıvan: "Əcəmi" Nəşriyyat Birliyi, - 2012 - 128 s.

[12] Quliyev, H., Bəxtiyarov, A. Azərbaycanda qədim dini inamlar və onların məişətdə qalıqları / H.Quliyev, A.Bəxtiyarov - Bakı: Kommunist, - 1968. - 112 s.

[13] Yoloğlu, G. Mövsüm mərasimləri (türk xalqlarının materialları əsasında tarixi-etnoqrafol tədqiqat) / G.Yoloğlu – Bakı: Xəzər Universiteti nəşriyyatı, - 2009. – 218 s.

[14] Allahmanlı, M. Azərbaycanın Qərb bölgəsinin mənəvi mədəniyyətindən (tarixi-etnoqrafik tədqiqat) / M.Allahmanlı - Bakı: Nurlan, - 2011, - 176 s.

[15] Qeybullayev, Q. Azərbaycanlılarda ailə və nigah (XIX əsr və XX əsrin əvvəlləri) I hissə: tarixi etnoqrafik tədqiqat / Q.Qeybullayev – Bakı; Elm, - 1994. – 264 s.; Azərbaycanlılarda ailə və nigah (XIX əsr və XX əsrin əvvəlləri). II hissə : tarixi etnoqrafik tədqiqat / Q.Qeybullayev – Bakı; Elm, - 1994. – 437 s.

[16] Quliyeva N.M. Azərbaycanda uşaq etnoqrafiyası / N.Quliyeva – Bakı: "Avropa" nəşriyyatı, - 2021, - 216 s. ; Quliyeva N.M. Müstəqillik illərində Azərbaycan ailəsi / N.M.Quliyeva – Bakı: Elm, - 2006. -94 s. ; Quliyeva, N. Etnoqrafiya və Etnologiya (dərs vəsaiti). Ali məktəb tələbələri üçün vəsait / N.Quliyeva - Bakı: ADPU, - 2009. - 157 s.; Quliyeva, N.M. Azərbaycanda müasir kənd ailəsi / N.M.Quliyeva - Bakı: Elm, - 1997. – 242 s.

[17] Bünyadova, Ş. Orta əsr Azərbayca ailəsi / Ş.Bünyadova - Bakı: Elm, - 2012. - 384 s.; Bünyadova, Ş.T. Münasibətlər müstəvisi / Ş.T.Bünyadova – Bakı: Mütərcim, - 2018. – 152 s.

[18] Paşayeva, M. Azərbaycanlıların ailə mərasimlərində etnik ənənələr (XIX-XX əsrin əvvəlləri. Şəki-Zaqatala bölgəsinin materialarlı üzrə) / M.Paşayeva – Baki: Azərnəşr, - 2008, -308 səh+24 s.

[19] Əliyev, R. İslamda ailə və nikah münasibətləri / R.Əliyev - Bakı: İrşad İslam Araşdırmaları Mərkəzi, - 1999. - 236 s.

araşdırmasında azərbaycanlıların XIX-XX əsrlərdə adət və inancları tədqiqat obyektidir. Azərbaycanlıların mənəvi dəyərlər sisteminin tərkib hissəini təşkil edən milli xarakteri etnoqraf E.Kərimovun[21] elmi məqaləsində araşdırılmışdır. Bu məqalə xalqın dünyagörüşünü, mentalitetini araşdırmaq üçün dəyərli mənbədir. Etnoqraf F.Vəliyev[22] araşdırmalarında azərbaycanlıların maddi və mənəvi mədəniyyətini, ailə-təsərrüfat məişətini, xalq adətləri və inanclarını tədqiq etmişdir. Azərbaycan qadın bəzəkləri K.Hadıyeva[23], Bakının sənətkarlığı M.Xəlilova[24] tərəfindən araşdırılmışdır. Lakin bu tədqiqat işlərində azərbaycanlıların milli-mənəvi dəyərləri nəzəri baxımdan xüsusi tədqiqat obyekti olmamışdır.

Mənəvi dəyərlərə fəlsəfi və etnoloji yanaşma etnoqraf X.Xəlillinin[25] tədqiqatında öz əksini tapmışdır. Bu məqalədə tarixlə fəlsəfənin vəhdəti, milli-mənəvi dəyərlərin formalaşması prosesi məsələləri araşdırılmışdır. Tədqiqatçı Azərbaycan tarixşünaslığında mənəvi dəyərlərin sovet milli siyasətinin təsiri altında olduğunu göstərmişdir. Lakin bu məqalədə də azərbaycanlıların milli-mənəvi dəyərlərinin digər aspektləri tədqiqat problemi kimi qoyulmamışdır.

Azərbaycanlıların maddi və mənəvi mədəniyyətinin tədqiqinə dair dəyərli mənbə Rusiya Elmər Akademiyasının nəşri olan monoqrafiyada[26] Azərbaycanın tarixi-etnoqrafik bölgələri üzrə maddi və mədəni irsinin səciyyəvi xüsusiyyətləri, evlərin quruluşu, geyim və

---

[20] Paşayeva, M. Azərbaycanlıların adət və inancları (XIX-XX əsrlər) / M.Paşayeva - Bakı, - 2019. – 292 s.

[21] Керимов Э. Этнопсихологический портрет азербайджанцев. // - Баку: Irs, - 2011. № 1 (49), - с. 4-9.

[22] Vəli, F.İ. Azərbaycanın milli-mənəvi və maddi dəyərləri (məqalələr toplusu) / F.İ.Vəli – Bakı: Mütəcim, - 2018. – 352 s.

[23] Hadıyeva, K. XIX-XX əsrin əvvəllərində Azərbaycanda ənənəvi qadın bəzəkləri (tarixi-etnoqrafik tədqiqat) / K.Hadıyeva - Bakı: Xəzər Universitetinin nəşriyyatı, - 2009. - 198 s.

[24] Xəlilova, M. XIX əsrin sonu-XX əsrin əvvəllərində Bakıda sənətkarlıq / M. Xəlilova – Bakı: “Elm” nəşriyyatı, - 2009. – 200 s.

[25] Xəlilli, X. Tarix və onun problemləri. // Tarixin fəlsəfi: retrospektiv və perspektiv. - Bakı: Azərbaycan, - 2018. – 704 s.

[26] Азербайджанцы. / отв. ред. А. Мамедли, Л.Т.Соловьева. - М.: Наука, - 2017. - 708 с.

bəzəklər, maddi mədəniyyət irsi olan yeməklər və s. haqqında məlumat verilmişdir. Evlərin tikintisi ilə əlaqədar adət-ənənələr, xalqın mənəvi irsi olan geyim və bəzəklər F.Vəliyev, ənənəvi yemək və içkilər S.Ağamaliyeva və S.Məhərrəmova, ənənəvi sənətkarlıq S.Məhərrəmova, ailə və ailə məişəti Q.Rəcəbli, sosial institutlar sistemində ağsaqqallar institutu, xalq musiqi və rəqsləri, musiqi alətləri akademik T.Bünyadov, mənəvi mədəniyyətdə dini təsəvvürlər T.Şahbazov, T.Babayev, X.Zahidova, professional mədəniyyət İ.Həbibbəyli, V.Qafarov, F.Ələkbərli, A.Salayev, X.Zeynalova, Azərbaycanda islam Ş.Nuruzadə tərəfindən etnoqrafik baxımdan araşdırılmışdır. Həmin monoqrafiyada azərbaycanlıların mənəvi dəyərləri sistemində özünəməxsus yeri olan Azərbaycan dilinin formalaşması prosesi və s. problemlər A.Balayev, XIX əsrin ikinci yarısında və XX əsrdə Azərbaycan millətinin formalaşması prosesi A.Balayev və Ə.Məmmədli tərəfindən tədqiq olunmuşdur. Azərbaycanda müasir etno-mədəni proseslər Ə.Məmmədli[27] tərəfindən araşdırılmışdır.

Qarabağın maddi və mənəvi mədəniyyətinin qədim zamanlardan XIX əsrədək bir dövrü tarixi baxımdan Q.Hacıyev[28] tərəfindən təhqiq edilmişdir.

Xalqın mənəvi dəyəri olan folklor və mifologiya nəzəri-metodoloji kontekstdə S.Rzasoy[29] tərəfindən araşdırılmışdır. Tədqiqatçı folklorun xalqın təkkürünün məhsulu olduğunu göstərmiş, "Oğuz mifi", "epos" anlayışlarına nəzəri cəhətdən yanaşmışdır. Azərbaycanlıların mifologiyasının genezisizi, təkamülü prosesi

---

[27] Мамедли, А. Современные этнокультурные процессы в Азербайджане: основные тенденции и перспективы / А. Мамедли – Баку: Университет Хазар, - 2008. – 246 с.

[28] Hacıyev, Q. Qarabağın maddi və mənəvi mədəniyyəti / Q.Hacıyev – Bakı: Təhsil, - 2010. – 152 s.

[29] Rzasoy, S.G. Mifologiya və folklor: nəzəri-metodoloji kontekst / S.Rzasoy – Bakı: Nurlan, - 2008. – 188 s.; Rzasoy, S. Oğuz mifologiyası (metod, struktur, rekonstruksiya) / S.Rzasoy - Bakı: Nurlan, - 2009. - 363 s.

R.Qarafov tərəfindən araşdırılmışdır[30]. Türk xalqlarının mifoloji baxışları, türk dilləri türkoloq, filoloq F.Cəlilovun[31] tədqiqatlarında öz əksini tapmışdır. Lakin burada da yalnız folklor və mifologiya araşdırılmış, azərbaycanlıların mənəvi dəyərlərinin digər aspektləri elmi problem obyekti olmamışdır. "Sovet dəyərləri"nin formalaşdırılması və sovet hakimiyyətinin ilk illərindən Azərbaycanda folklorşunaslığın siyasiləşdirilməsi cəhdi kimi məsələlər fokları... folklorşünas C.Qasımovun[32] monoqrafiyasında sovet hökumətinin xalqın milli-mənəvi dəyərlərini məhv etmək üçün foklora və foklorşünaslara qarşı həyata keçirdiyi repressiya siyasəti öz əksini tapmışdır. Tədqiqatçı əsasən totalitarizm dövründə ortaq türk-islam mədəniyyətinə - mənəvi dəyərlərin məhv edilməsinə, milli musiqi və milli alətlərə, eləcə də, "Kitabi-Dədə Qorqud"a qarşı siyasəti, milli-mənəvi dəyərlərin daşıyıçıları olan ziyalı alimlərə və musiqiçilərə qarşı repressiyaları araşdırmışdır. C.Qasımov Firidunbəy Köçərli, Bəhlul Bəhcat, Salman Mumtaz, Yusif Vəzir Çəmənzəminli, Vəli Xuluflu, Hənəfi Baba oğlu Zeynallı, Əmin Abid kimi görkəmli ziyalıların mənəvi dəyərlərin daşıyıcıları olduqlarını göstərmişdir.

Milli-mənəvi dəyərlərin yaradıcısı və daşıyıcısı xalqdır, lakin onun yaşadılmasında, müxtəlif ictimai-siyasi təzyiqlərdən mühafizə edilməsində Azərbaycanın görkəmli şəxsiyyətlərinin rolu danılmazdır. Görkəmli şəxsiyyətlər, ziyalılar xalqın yetirməsidir və onu xalqın düşünən beyni hesab etmək olar.

Azərbaycanlıların islami dəyərləri dövlətçilik baxımından Adil Abdulla Əl-Fəlahın[33] monoqrafiyasında araşdırılmışdır. Monoqrafiyada Azərbaycanda dini dəyərlərin qorunmasında, tolerantlıq mühitin yaşadılmasında Ulu Öndər Heydər Əliyevin xidmətləri göstərilir. O,

---

[30] Qafarov, R.O. Azərbaycan türklərinin mifologiyası (qaynaqları, təsnifatı, obrazları, genezisi, evolyusiyası və poetikası): / fəlsəfə elmlər doktoru dis. avtoreferatı. / Bakı, 2010. – 59 s.

[31] Ağasioğlu, F. İslamöncəsi Türk tarixi (Doqquz Bitik). V Bitik. Mifologiya tarixi / F. Ağasioğlu - İstanbul: - 2009. – 455 s.

[32] Qasımov, C. Azərbaycan folklorşümaslığı və sovet totalitarizmi / C.Qasımov - Bakı: Nurlan, - 2011. - 599 s.

[33] Əl-fəlah Abdulla, A. Heydər Əliyev və milli-mənəvi dəyərlər / A. əl-fəlah Abdulla. - Bakı: Qismət, - 2007. - 108 s.

Heydər Əliyevin bu sahədə fəaliyyətini aşağıdakı kimi dəyərləndirir: *“Heydər Əliyev beləcə əsl siyasi-ideoloji lider kimi ənənələri və müasir tələbləri özündə birləşdirən, xalqın mentalitetinə və psixologiyasına uyğun gələn yeni ölkə, yeni həyat quruculuğu konsepsiyasının, həm nəzəri-strateji, həm də əməli-taktiki problemlərini düzgün müəyyənləşdirməyi bacardı”* [34].

İ.Hüseynovun, N.Abbasovun[35] tədqiqatlarında milli-mənəvi dəyərlərin bəzi aspektləri kulturoloji, pedaqoji nöqteyi-nəzərindən araşdırılmışdır. İ.Hüseynov milli adət və ənənələrin *“tarixin bütün mərhələlərində ictimai, mədəni tərəqqinin əsas göstəricisi”* olduğunu göstərir[36]. O, azərbaycanlıların milli-mənəvi dəyərlərinin xalqın soy-kökü ilə bağlı olduğu fikrini irəli sürür. Sözsüz ki, milli-mənəvi dəyərlərin yaşadılması gənc nəslin bu dəyərlərə söykənən milli mədəniyyət əsasında tərbiyə edilməsi təqdirində mümkündür və bu tezisdən də göründüyü kimi, mənəvi dəyərlərin qorunmasında ailə və cəmiyyət, əsasən də, dövlət mühüm rol oynayır.

Azərbaycanlıların milli-mənəvi dəyərinin xalq pedaqogikasında təzahürü məsələsi Ə.Həşimov[37] tərəfindən tədqiq edilmişdir. Onun tədqiqatlarında tərbiyə vasitəsi kimi xalq hikmətlərinin, tarixən əldə edilmiş təcrübənin, adət-ənənələrin rolu, şifahi xalq nümunələrində əxlaqi, əqli, estetik və fiziki tərbiyə məsələləri əksini tapmışdır. Lakin bu tədqiqat işlərində də xalqın milli-mənəvi irsi olan etnopsixologiya və xalq tərbiyəsi məsələlərindən başqa digər məsələlər tədqiqat obyekti olmamışdır.

Qeyd etmək lazımdır ki, milli-mənəvi dəyərlərin tədqiqi onların xalqın mənəvi dəyərlər sistemində möhkəmlənməsi və adət-ənə-

---

[34] Əl-fəlah Abdulla, A. Heydər Əliyev və milli-mənəvi dəyərlər / A. əl-fəlah Abdulla. - Bakı: Qismət, - 2007. - 108 s.

[35] Abbasov, N. Mədəniyyət siyasəti və mənəvi dəyərlər / N.Abbasov. – Bakı: Təknür, - 2009, 444 s.

[36] Hüseynov, İ. Azərbaycan milli adət və ənənələrinin bədii-estetik mahiyyəti / İ.Hüseynov. - Bakı: Mars-Print, - 2002, - 305 s.

[37] Həşimov, Ə., Sadıqov, F. Pedaqogika (Tərbiyə nəzəriyyəsinə dair mülahizələr) / Ə. Bakı: Təbib, 1995. – 248 s.; Həşimov, Ə.Ş. Pedaqogika kursunun tədrisində xalq hikmətindən istifadə / Ə.Ş.Həşimov - Bakı: Maarif, - 1991. – 240 s.

nələrdə, etnopsixologiyada özünü göstərməsi tarixən formalaşdığını və soykökü ilə bağlılığını deməyə imkan verir.

Azərbaycan fəlsəfə və kulturologiya elmində mənəvi dəyərlər problemi kulturoloq F.Məmmədov[38] tərəfindən araşdırılmış və problemin fəlsəfi və dövlət dəyərləri baxımdan tədqiqi üçün dəyərli mənbədir. Lakin o, öz araşdırmalarında problemə etnoloji baxımdan yanaşmamış və azərbaycanlıların milli-mənəvi dəyərlərinin tarixi müqayisəli təhlili tədqiqat obyekti olmamışdır.

Tədqiqatçı F.Ələkbərlinin[39] tədqiqatlarında Azərbaycan türklərinin milli-mənəvi dəyərlərinin formalaşması, türk xalqlarının milli ideologiyasının formalaşmasında Azərbaycanın görkəmli şəxsiyyətlərinin xidmətləri araşdırılmış, problemə fəlsəfi-tarixi nöqteyi-nəzərdən yanaşılmışdır. Həmin tədqiqatlarda dissertasiya işi qarşısında duran digər problemlər öz əksini tapmamışdır.

Azərbaycanlıların milli-mənəvi dəyərlərinin ümumtürk aspektində araşdırılması üçün zəngin mənbə kimi türk tədqiqatçısı Y.Kalafatın elmi əsərlərini[40] göstərmək olar. Y.Kalafatın elmi araşdırmalarında mənəvi mədəniyyətin bir çox sahələrinə ümümtürk dəyərləri baxımından yanaşılmış və onların türk xalqları üçün ilkin mənası və əhəmiyyəti kimi məsələlərə xüsusi diqqət verilmişdir. Bu baxımdan azərbaycanlıların mənəvi mədəniyyətinin dəyərlər nöqteyi-nəzərindən araşdırılması üçün tədqiqatçının əsərləri zəngin mənbə kimi qiymətləndirilməlidir.

---

[38] Məmmədov, F. T. Kulturologiya və insan inkişafı. / F.Məmmədov - Bakı: “OL” NPTK, - 2019, – 344 s.; Məmmədov, F.T. İdarəetmə mədəniyyəti Xarici ölkələrin təcrübəsi / F.Məmmədov - Bakı: “Apostrof” Çap Evi, - 2013. - 672 s.

[39] Ələkbərli, F.Q. Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış (II hissə). / F.Ələkbərli – Bakı: Elm və təhsil, - 2014. - 500 s.

[40] Kalafat Y., Abdurrezzak Ali O. Totem / Y.kalafat, A.O.Abdurrezzak – Ankara: Berikan, - 2018, - 124 s.; Kalafat Y., Kamalov İ. Tatar Efsaneleri [Elektron resurs] file:///D:/Ya%C5%9Far%20Kalafat/299249409_kalafat.pdf; Kalafat, Y. Altaylardan Anadoluya kamizm (Başlanglçtan günümüze tenqriçilik-Göktengri inam sistemi)]. [Elektron resurs] file:///C:/Users/user/Downloads/Yasar_Kalafat _ALTAYLAR _DAN_ANADOLU_YA_KA%20(1).pdf ; Kalafat, Y. Dedem Korkut Yurdu Anadolu’da Türk Ululları // Kitab-ı Dede Korkud Destanı’nın 1300 Yıllık Yübileyi Sempozyumu, - Bakı: - 6-8 aprel - 2000 və s.

Beləliklə, “Azərbaycan Respublikasında mənəvi dəyərlər (etnoqrafik tədqiqat)” adlı dissertasiya işinin qarşısında duran problemlər, xüsusilə milli-mənəvi dəyərlərə nəzəri yanaşma, dəyərlərin formalaşması prosesi, təkamülü, sovet hakimiyyəti illərində “sovet dəyərləri”nin formalaşdırılması və təbliği, SSRİ-nin süqutundan sonra ölkədə baş verən özünəqayıdış, özünüdərk prosesləri, Qarabağ müharibələri zamanı xalqın milli-mənəvi dəyərlərinin təzahürü, milli-mənəvi dəyərlərin bu və ya digər səbəblərdən tarixən transformasiyaya uğraması və ya bugünədək qorunub saxlanması və s. məsələlər kompleks şəkildə elmi araşdırma obyekti olmamışdır. Dissertasiya işində ilk dəfə olaraq etnoqrafik baxımdan xalqın bugünədək gəlib çıxmış maddi və mənəvi irsi olan mədəniyyət nümunələrinin semantikası qədim və orta əsr mənbələri, arxeoloji materiallar, xalqın dünyagörüşünü özündə əks etdirən folklor və mifologiya nümunələri, çöl etnoqrafik materialları və bizədək gəlib çıxmış adət-ənənələr, eləcə də Azərbaycan Respublikasının dövlətçilik atributları (əsasən, bayraq) milli siyasətlə tarixi-müqayisəli araşdırılmışdır.

**Tədqiqatın mənbə bazası.** Dissertasiya işinin yazılmasında arxeoloji və çöl etnoqrafik materiallardan, folklor nümunələrindən, arxiv sənədlərindən, dövri mətbuatdan, elmi ədəbiyyatdan istifadə edilmişdir. Tədqiqat işinin mənbə bazasına müəllif tərəfindən 2000-ci illərin əvvəllərindən son illərədək olan müddətdə çöl etnoqrafik ekspdesiyalarında əldə etdiyi fotolar da daxildir. Bunların arasında etnoqraf-alim Ş.Bünyadovanın, Qusar rayonu Hil kəndindən V.Bəkərovun, Zəngilandan E.Hacıyevin və İkinci Qarabağ müharibələri qazisi E.Vəliyevin bəzi şəxsi fotolarından istifadə etmişik. Həmin müəlliflərə iddiaçı öz təşəkkürünü bildirir. Həmin fotolar dissertasiyaya əlavə edilmişdir. Dastanlar və mifologiya, folklor nümunələri, müxtəlif elmi araşdırmalar dəyərlərin formalaşmasının ilkin mərhələlərində hansı məna kəsb etdiyini, tarixi formalaşması prosesini və müasir dövrədək gəlib çıxmış mədəni irsin təkamül prosesini tarixi müqayisəli təhlil etməyə imkan vermişdir. Bu baxımdan türk tədqiqatçısı Y. Kalafatın tədqiqatlarından geniş istifadə edilmişdir. Bu problemləri araşdırmaq üçün Oğuz dastanları, Kitabi-Dədə Qorqud dastanları qiymətli mənbədir. Sovet hökumətinin milli siyasətini,

sovet dəyərlərini, “sovet adamı”nı formalaşdırmaq siyasətini araşdırmaq üçün həmin dövrə aid arxiv sənədlərinə, informatorların verdiyi məlumatlara müraciət olunmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyektini azərbaycanlıların mənəvi dəyərləri təşkil edir. Tədqiqatın predmetini azərbaycanlıların mənəvi dəyərlərinin formalaşmasına təsir edən amillərin, milli-mənəvi dəyərlərin qorunub saxlanmasında nəsillər arasında varisliyin, ənənəvi mənəvi dəyərlərə nəzəri baxışların və müasir dövrdə onların vəziyyətinin araşdırılması təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi azərbaycanlıların milli-mənəvi dəyərlərinin etnoqrafik xüsusiyyətlərini tarixi-müqayisəli tədqiq etməkdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin həllinə cəhd gösrətilmişdir:

- mənəvi dəyərlər anlayışı və onun etnoqrafiya elmində yerini müəyyən etmək;
- müasir şəraitdə etnomədəni prosesləri və onların ənənəvi dəyərlərə təsir dərəcəsini göstərmək;
- sovet hakimiyyəti illərində “yeni həyat tərzinin” formalaşdırılması və təbliğinin ənənəvi mənəvi dəyərlərə təsirini müəyyən etmək;
- müstəqillik illərində özünəqayıdış, özünüdərk prosesləri və xalqın həyatında baş verən dəyişiklikləri, xalqın ənənəvi mənəvi dəyərlərə münasibətini göstərmək;
- Qarabağ müharibələrində Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin təzahürünü tarixilik baxımdan əsaslandırmaq;
- din və şəriət, ailə-məişət münasibətləri, yas adətləri, ənənəvi etiket normaları, bayramlar və xalq oyunları, etnomusiqi, folklor və mifologiya kimi mənəvi mədəniyyətin milli-mənəvi dəyərlər kimi formalaşmasının səbəblərini, köklərini araşdırmaq;
- sosial institutların milli-mənəvi dəyərlər sistemində yerini müəyyən etmək;
- ənənəvi maddi mədəniyyəti - ənənəvi geyimləri, xalçaçılığı, ənənəvi qidalanma sistemini milli-mənəvi dəyərlər aspektindən araşdırmaq;

- ailə-məişət münasibətlərini - ailədaxili münasibətləri, toy və yas adətlərini mənəvi dəyərlər baxımından tədqiq etmək.

**Tədqiqat metodları.** Tədqiqat işinin yazılmasında ilk növbədə tarixi müqayisəli təhlil metodundan istifadə edilmişdir. Azərbaycanlıların mənəvi dəyərləri tarixi, öz köklərinə bağlılıq və coğrafi mövqe baxımından tədqiq olunmuşdur. Toplanmış materiallar təhlil edilərkən problemə hərtərəfli və sistemli yanaşılmış, elmi ümumiləşdirmələrə və müqayisələrə üstünlük verilmişdir. Etnoqrafik ekspedisiyalar zamanı informatorlardan materiallar toplanmış, canlı müşahidə və sorğu metodlarından, eləcə də tipoloji təsnifat metodundan istifadə edilmişdir. Müqayisə-funksional və ya kross-mədəni metoddan istifadə edilərək azərbaycanlıların digər xalqlarla, əsasən türk və müsəlman xalqları ilə ümumi dəyərlərinin formalaşmasında ümumilikləri və onların səbəblərini müəyyən etmək nəzərdə tutulmuşddur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Azərbaycanlıların mənəvi dəyərləri tarixilik baxımdan nəzərdən keçirilməlidir. Müasir dövrdə mənəvi dəyərlər bir sıra tarixi proseslərin təsiri nəticəsində öz ilkin formasını dəyişsə də, xalqın mədəniyyətinin tarixi inkişaf mərhələləri, onun soykökü haqqında təsəvvür yaradır; xalqın etnotarixində müxtəlif iqtisadi-siyasi və ictimai proseslər nəticəsində baş verən dəyişikliklər ənənəvi dəyərlərə də təsir etmiş, bununla da labüd olaraq maddi və mənəvi mədəniyyətə yeniliklər (məsələn, islami dəyərlər – şəriət, islam abidələri və s.) daxil olmuş, zaman keçdikcə xalqın mədəni irsi yeni formalar almış, daha da zənginləşmişdir. Tarixi-siyasi proseslər (Azərbaycanın Çar Rusiyasının və SSRİ-nin tərkibində olması) azərbaycanlıları ümumtürk mədəniyyətindən ayıra bilməmişdir;

- Tarixi-müqayisəli təhlil göstərir ki, Azərbaycan xalqının mənəvi dəyərlərinin formalaşmasında ümumtürk mədəniyyəti, ölkə ərazisində yaşayan etnik və etnoqrafik qrupların mədəniyyəti mühüm rol oynamış, əsasən də milli mənsubiyyətindən asılı olmayaraq müsəlmanların mənəvi dəyərləri, xüsusilə də, dini dəyərləri, ailə-məişət münasibətləri, milli xarakteri, milli dövlətçilik dəyərləri və s. ümumazərbaycan xarakteri almışdır. Bu, daha çox ölkədə gedən sosial

proseslərdə, Qarabağ müharibələrində milli həmrəylikdə özünü büruzə verdi;

- Əhalinin qidalanma və süfrə mədəniyyəti, bayram və mərasimlər, geyim mədəniyyəti, ailə-məişət münasibətləri və s. mənəvi mədəniyyət sahələri ənənəvi məşğuliyyətin, ümumtürk mədəniyyətinin və şəriətin təsiri altında formalaşmışdır;

- Azərbaycanlıların mənəvi mədəniyyəti, mənəvi dəyərləri ümumtürk, islam və Qafqaz mədəniyyətinin tərkib hissəsi kimi səciyyələnsə də, bir sıra yerli xüsusiyyətlərə malikdir. Qonşu xalqlarla yaxın qonşuluq münasibətləri də oxşar mədəniyyətin formalaşmasında özünü göstərir. Tarixən qonşu məskunlaşmış xalqlar, eləcə də qonşu olmayan xalqlar arasında uzunmüddətli mədəni və iqtisadi əlaqələr (ümumi din amili olduqda bu daha güclü olur) mədəniyyətin qarşılıqlı mənimsənilməsi halları mümkündür;

- Bəzi hallarda qonşu xalqların (məsələn, ermənilərin) azərbaycanlıların mədəni irsinin tarixi köklərini saxtalaşdırmaq və özününkü kimi qələmə vermək halları da baş verir. Buna görə də xalqın mədəni irsinin etnotarixi baxımdan araşdırlması və onun qorunması vacib məsələlərdən biridir;

- Azərbaycan xalqının mənəvi dəyərlərinin formalaşması prosesi bir sıra tarixi mərhələdən keçmişdir. Ölkə ərazisində olan dinlər – islamaqədərki dini inanclar, zərdüştlük, xristianlıq və islam xalqın mənəvi dəyərlərinin, etnomədəni irsinin formalaşmasında mühüm rol oynamışdır;

- Milli mədəniyyətin dəyərləri kimi aşağıdakılar ön plana çıxır: inanclar, folklor, mərasimlər, ayinlər, həyata baxış, ideallar, milli xarakter, etnopsixologiya, ənənəvi etiket, milli ideologiya və s. Ənənələr dəyərlər kimi qəbul edildiyindən onu mədəni dəyərlərin varisi kimi qəbul etmək olar. Ənənələr məişət normalarını və davranışları istiqamətləndirir və onu korrektə edir.

- Milli mədəniyyət etnomədəni elementlərin qarşılıqlı təsirinin və qarşılıqlı mənimsənilməsinin tarixi dinamik prosesidir. O özünü din və folklorda, qidalanma sistemində, geyim mədəniyyətində, ailədaxili münasibətlərdə, toy və yas adətlərində, xalq pedaqogikası,

qarşılıqlı yardım, qonaqpərvərlik kimi sosial institutlarda və s.-də göstərir.

- Xalqın baza dəyərləri, məsələn, yas və toy adətləri, qidalanma sistemi tarixi proseslərin təsiri altında dəyişikliyə məruz qalsa da, öz ilkin formasını qoruyub saxlayır. Yas və toy adətləri, yemək və içkiləri nisbətən sabit dəyərlər kimi çıxış edir. Lakin onlar da müasir qloballaşma və inteqrasiya proseslərinin təsirinə məruz qalırlar.

- Müasir dövrün tələblərindən irəli gələrək milli-mənəvi dəyərlər bir sıra dəyişikliyə məruz qalsa da öz kökünü, bazasını qoruyub saxlayır. Dünyada baş verən proseslər, məsələn, münaqişələr (əsasən də Qarabağ müharibələri) göstərdi ki, dəyərlərə təhdid olduqda milli hisslər oyanır və etnopsixologiyadan irəli gələrək bu proseslər mədəni irsə marağın artması, özününkünü qorumaq, müdafiə etmək kimi hisslərin oyanması və milli-mənəvi dəyərlərə qayıdış tələbatı ilə müşayiət olunur. Beləliklə, milli hisslər bu və ya digər proseslər, təsirlər nəticəsində "yatmış" vəziyyətdə görünə bilər, lakin xalqın mənəvi dəyərlərinə təhdid olduğu zaman yenidən daha güclü şəkildə oyanar.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan etnoqrafiyasında ilk dəfə olaraq zəngin ədəbiyyat, arxiv və çöl etnoqrafik materialları əsasında azərbaycanlıların mənəvi dəyərlərinin etnoqrafik xüsusiyyətləri tarixi-müqayisəli metodla kompleks şəkildə araşdırılmışdır. Dissertasiya işində mənəvi dəyərlər anlayışına Azərbaycan etnoqrafiya elmində ilk dəfə olaraq nəzəri yanaşma irəli sürülür, Azərbaycan xalqının mənəvi dəyərlərinin etnoqrafik təhlili və müasir dövrdə bu dəyərlərin qorunması və inkişafı ilə bağlı təqdim edilən yeni yanaşmalar təsdiq edir ki, etnomədəni irsin qorunması yalnız ənənəvi dəyərlərin bərpası deyil, həm də bu dəyərlərin müasir cəmiyyətə inteqrasiyası və gələcək nəsillərə ötürülməsi məqsədini güdür. Müasir dövrün aktual problemləri kontekstində milli-mənəvi dəyərlərin tədqiqi Azərbaycan etnoqrafiyasına yeni bir yanaşma gətirir. Tədqiqatın elmi yeniliyi bir neçə istiqamətdə özünü göstərir: Azərbaycan xalqının mənəvi dəyərlərinin ənənəvi mədəniyyət və müasir cəmiyyətin dinamikaları arasında qarşılıqlı əlaqədə təhlili

belə bir yeni nəzəri nəticəyə gətirib çıxarır ki, milli-mənəvi dəyərlər, yalnız ənənəvi mədəniyyətin qorunub saxlanması ilə məhdudlaşmır, eyni zamanda müasir dövrün inkişaf tendensiyalarına uyğun olaraq yenilənir və formalaşır; sovet dövründə aparılmış ideoloji manipulyasiyaların, xüsusilə milli-mənəvi dəyərlərə qarşı yönəlmiş təzyiqlərin nəticələri və müstəqillikdən sonra baş verən özünüdərk prosesləri arasındakı qarşılıqlı əlaqənin təhlili ilk dəfə olaraq sovet dövrü ilə müstəqillik illəri arasında milli-mənəvi dəyərlərin transformasiyasını izləmək imkanı yaradır. Tədqiqatın yeni aspektlərindən biri Qarabağ müharibəsi zamanı xalqın milli-mənəvi dəyərlərinin təzahürü və müharibənin milli birliyi və dövlətçilik məfkurəsinin möhkəmləndirməsi proseslərini diqqət mərkəzinə gətirmək olmuşdur. Müharibə dövründə xalqın özünə inamı, torpaqlarına və milli kimliyinə bağlılığı, Vətənə xidmət etməklə bağlı mənəvi gücün göstərilməsi bu yanaşmanın elmi yeniliyini təşkil edir. Tədqiqatda etnoqrafik baxımdan yeni metodologiya təqdim edilərək, qloballaşma proseslərinin mənəvi dəyərlərə həm müsbət, həm də mənfi təsir etdiyi sübut edilir. Bu metodların tətbiqi ilə milli-mənəvi dəyərlərin müasir təzahürlərinin təhlili əsasında müəyyən edilmişdir ki, qloballaşma və müasir sosial-siyasi dəyişikliklərin təsiri altında Azərbaycan xalqının milli-mənəvi dəyərləri müxtəlif formalarla təzahür edir, bəzən ənənəvi dəyərlərin yenilənməsi və adaptasiyası, bəzən isə köhnə dəyərlərin müəyyən dərəcədə dəyişməsi və ya itirilməsi müşahidə olunur. Bu nəticə, həmçinin, milli dəyərlərin qorunması və müasir dövrün tələblərinə uyğunlaşdırılması məsələsində qarşıya çıxan çətinlikləri və imkanları da üzə çıxarır. Bu yanaşma, ənənəvi dəyərlərin müasir dövrdə necə yaşadığını göstərir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Mənəvi dəyərlərin etnoqrafik baxımdan araşdırılması azərbaycanlıların mənəvi dəyərlər sisteminin formalaşmasına təsir edən amilləri və etnomədəni irsin, ənənəvi dəyərlərin xalqın həyatındakı rolunu anlamaq baxımından əhəmiyyətlidir. Dissertasiya işi elmi tədqiqatlarda, ali məktəblərdə xüsusi kursların keçirilməsində, milli mədəniyyət siyasətinin aparılmasında, təhsil və tərbiyə sahələrində mədəni-tarixi konsep-

siyaların hazırlanmasında köməkçi vasitə kimi, eləcə də bir sıra elm sahələrinin (etnoqrafiya, folklor, fəlsəfə, kulturologiya, pedaqogika, etnopsixologiya və s.) tədrisində istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas müddəaları ayrı-ayrı beynəlxalq və respublika konfranslarının materiallarında, beynəlxalq və Respublika elmi jurnallarında, eləcə də beynəlxalq sitatlı jurnallarda dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun "Müasir dövr etnoqrafiya" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**. Dissertasiya işi girişdən, 5 fəsil və 15 paraqrafdan, nəticədən, ədəbiyyat siyahısından, əlavələrdən və ixtisarların və şərti işarələrin siyahısından ibarətdir. Dissertasiyanın Giriş hissəsi -31340, I fəsli -57865, II fəsli-112 340, III fəsli -142870, IV fəsli- 90020, V fəsli -66125, Nəticə - 20411 işarədən ibarətdir. Dissertasiyanın işarə ilə ümumi həcmi 524285 işarədir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Tədqiqat işinin **"Giriş"** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın mənbə bazası, obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, tədqiqatın aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı və dissertasiya işinin quruluşu kimi məsələlər açıqlanmışdır.

**"Mənəvi dəyərlər anlayışı və onun etnoqrafiya elmində yeri"** adlanan I fəsildə "mənəvi dəyərlər" analyışına müxtəlif elmi-nəzəri baxış və Azərbaycan etnoqraflarının yanaşmaları kimi məsələlər araşdırılmışdır.

Birinci fəslin **""Mənəvi dəyərlər" anlayışına müxtəlif elmi-nəzəri baxış"** adlı birinci paraqrafında dünya alimlərinin problemə yanaşmaları diqqətə çatdırılmışdır. İlk növbədə, mənəvi dəyərlərə

fəlsəfi, dini, pedaqoji, psixoloji və dövlətçilik nöqteyi-nəzərindən fərqli yanaşmalar göstərir ki, etnik mədəniyyət etnosun tarixən inkişaf etmiş dünyagörüşünün, dəyər və fəlsəfəsinin nəticəsidir.

İkinci dünya müharibəsindən sonra dünyada dəyərlər istiqamətinin dəyişməsi bu problemin tədqiqini aktuallaşdı və mədəni relyativizm nəzəriyyəsi daha da genişləndi. Mədəni relyativizm nəzəriyyəsinin mahiyyəti aşağıdakı yanaşmadan ibarətdir: hər bir xalq bütöv sistem kimi onun həyat qabiliyyətini təmin edən öz mədəniyyətini yaradır. Müharibə bəşəri dəyərlərlə yanaşı hər bir xalqın öz mədəni irsini qorumaq kimi meyllərin artmasına səbəb oldu. XX əsrin 50-ci illərində antropoloqların əksəriyyəti sosial həyatın demək olar ki, bütün aspektlərinin mədəniyyətin əsas xarakteristikasını təşkil edən və digər mədəniyyətlərdən fərqləndirən baza dəyərlərinə əsaslandığı fikrini qəbul etdilər. Dəyərlər nəzəriyyəsi xalqların mədəniyyətinin müxtəlif təzahürlərinə münasibətlərini və mənəvi dəyərlərin formalaşma mexanizmini müəyyən etməyə çalışır. Onlar hesab edirlər ki, dəyərlər və dəyərlərin qiymətləndirilməsi başlanğıcdan, yəni həyat yarandıqdan mövcud olub. Bu paraqrafda Y.V.Bromleyin, N.Çavçavadzenin və L.Qumilyovun da problemə nəzəri yanaşmaları öz əksini tapmışdır. Sovet etnoqrafiyasında "mədəniyyət" və "dəyərlər" anlayışına daha çox dövlətin milli siyasətinə müvafiq olaraq tərif verilirdi və dəyərlərin formlaşmasında milli ideologiyanın rolu məsələsi irəli sürülürdü. Sözsüz ki, burada milli ideologiya sovet ideologiyasını nəzərdə tuturdu. Beləliklə, mənəvi dəyərlər probleminə nəzəri yanaşmalarda müəyyən fərqlər olsa da, ümumilikdə, mənəvi dəyərlərin, mədəniyyətin fromalaşmasında insan faktoru əsas götürülür.

Bu paraqrafda irəli sürülən müddəalar aşağıdakı məqalələrdə öz əksini tapmışdır[41]

I fəslin **"Azərbaycan etnoqrafiyasında "mənəvi dəyərlər" problemi"** adlı ikinci paraqrafında etnoqrafların dəyərlər probleminə yanaşmaları yer alıb. Məsələn, Ə.Məmmədlinin, A.Allahmanlının və digərlərin yanaşlaları təhlil olunur. Ə.Məmmədli *"hər bir xalqın*

---

[41] Nuruzadə, Ş. Milli-mənəvi dəyərlərə nəzəri yanaşmalar // - Bakı: Tarix və onun problemləri: nəzəri, elmi, metodik jurnal, - 2015. №2, - 246-254; Nuruzadə, Ş.T. Etnik münaqişələr / Ş.Nuruzadə - Bakı: Mütərcim, - 2015. - 132 s.

*keçdiyi tarixi yolun müəyyən sosiomədəni sistemlə, etnik psixologiya ilə, tarix boyu dayanıqlı dəyərlər sistemi ilə əlaqədar"*[42] olduğunu göstərir.

Azərbaycan etnoqrafiyasında milli-mənəvi dəyərlər ilk dəfə Q.Qədirzdə tərəfindən araşdırılmışdır. Onun monoqrafiyasında milli-mənəvi dəyərlərin tərkib hissəsi olan təqvimlə əlaqədar bayram və mərasimlər, onların tarixi, adət-ənənələrin genezisi, Novruz bayramı, qışla bağlı təqvim adətləri, "Xıdır Nəbi" bayarmı və hz. Xızır peyğəmbərlə bağlı inamlar, Naxçıvan toylarında və "Kitabi Dədə Qorqud"da bəylik məsələsi və s. Azərbaycan xalqının mədəni irsi, baza dəyərləri kimi göstərilir.

Etnoqraf Q.Qeybullayevin tədqiqatlarından da göründüyü kimi, mənəvi mədəniyyətin tarixi keçmişlə sıx əlaqəli olduğunu nəzərə alsaq, xalqın mənəvi dəyərləri sisteminin, onun mədəni irsinin də tarixi keçmişi müəyyən dərəcədə yaşatdığını demək olar. Azərbaycanlıların ənənəvi mənəvi dəyərlərinin formalaşmasında orta əsrlərdə islamın bu ərazilərdə yaylması da əhəmiyyətli rol oynadı. Lakin xalqın islamaqədərki dəyərləri tamamilə aradan çıxmadı və islami dəyərlər ilə daha da zənginləşdi. Bu dəyişiliklər nəticəsində xalqın maddi və mənəvi mədəniyyətində islam amili öz təsdiqini tapdı. Bu fikir A.Mustafayevin tədqiqatında da öz əksini tapmışdır. N.Quliyeva, Ş.Bünyadova, M.Paşayevanın tədqiqatlarında ailədaxili münasibətlər, etnopedaqogika, ədəb normaları və s. məsələlər öz əksini tapmışdır. Etoqrafların tədqiqatlarından belə bir nəticəyə gəlmək olar ki, insanların yaratdıqları və tarixinin, milli özünəməxsusluğunun göstəricisi olan ənənəvi maddi və mənəvi mədəniyyət nümunələri onun milli-mənəvi dəyərləridir. Azərbaycanlıların milli-mənəvi dəyərləri onun etnik identiklik anlayışının əsasını təşkil edir.

**"Müasir şəraitdə etnomədəni və etnososial proseslər və onların mənəvi dəyərlərə təsir dərəcəsi"** adlı ikinci fəsildə sovet

---

[42] Məmmədli, Ə. Azərbaycanda etnoqrafiyanın müasir vəziyyəti və əsas inkişaf istiqamətləri haqqında [Elektron resurs] http://www.elibrary.az/docs/jurnal/jrn2014_641.pdf

hökumətinin milli siyasəti və “sovet dəyərlərinin” formalaşdırılması prosesi və müstəqillik illərində özünəqayıdış və özünüdərk kimi proseslər və onların mənəvi dəyərlər sisteminə təsiri, Qarabağ müharibələrində Azərbyacan xalqının milli-mənəvi dəyərlərinin təzahürü kimi məsələlər tədqiq olunmuşdur.

II fəslin **“Sovet hakimiyyəti illərində qondarma “yeni həyat tərzi”nin formalaşdırılması və təbliği məsələləri”** adlı birinci paraqrafında sovet hakimiyyətinin ilk günlərindən sovet xalqlarının etnik konsolidasiyası prosesi ilk növbədə müxtəlif tarixi mərhələlərdən keçmiş, müxtəlif dini baxışlara, adət-ənənələrə, həyat tərzinə, ümumilikdə, müxtəlif mənəvi dəyərlərə malik xalqları “birləşdirə biləcək” yeni dəyərlərin – “sovet dəyərlər”inin formalaşdırılması məqsədini güdürdü. “Sovet dəyərləri”ni formalaşdırmaq üçün ənənəvi dəyərlərin mərhələli şəkildə insanların “beyinlərindən silinməsi” planı həyata keçirilirdi. Bunun üçün də sözsüz ki, ənənəvi dünyagörüşdə, həyat tərzində köklü dəyişikliklər edilməli idi. Bu məqsədlə, etnik konsolidasiya siyasətinə böyük əhəmiyyət verilirdi. Bir tətəfdən sovet xalqlarının konsolodasiyası siyasətinin, digər tərəfdən də azərbaycanlılara qarşı deportasiyaların həyata keçirilməsi sovet hökumətinin bir-birinə zidd siyasət həyata keçirdiyini göstərir. SSRİ-də həyata keçirilən “mədəni inqilab” sovet mədəniyyətinin, sovet dəyərlərinin formalaşdırılmasında mühüm rol oynamalı idi. Bu plan kommunist partiyası və hökumətin qəbul etdiyi sənədlərdə, əsasən də kommunist partiyasının proqramında öz əksini tapmışdı. Mədəniyyətin bütün sahələri sovet həyat tərzini, ideologiyasını təbliğ etməli və “sovet dəyərləri”nə, ümumi dünyagörüşünə malik “sovet adamı”nı yetişdirməli idi. Sosialist beynəlmiləlçiliyi ideyalarının təsiri altında ictimai şüur sahəsində baş verən proseslər müxtəlif sovet xalqlarıın yaxınlaşmasında mühüm rol oynamalı idi. İlk növbədə bu xalqlar arasında əlaqədə müvafiq psixoloji mühit yaradılmalı idi. İlk baxışdan sovet hökumətinin bu siyasətində heç bir mənfiliklər diqqətə çapmır. Digər tərəfdən isə, “beynəlmiləlçilik”, “xalqlar dostluğu” şüarları yalnız sosialist ölkələri ilə əlaqələri nəzərdə tuturdu.

Bu paraqrafda irəli sürülən müddəalar aşağıdakı məqalələrdə öz əksini tapmışdır[43].

II fəslin **“Müstəqillik illərində özünəqayıdış, özünüdərk prosesləri və xalqın həyatında baş verən dəyişikliklər”** adlanan ikinci paraqrafında göstərilir ki, 1980-cı illərdə Azərbaycanda milli oyanış hərəkatının baş verməsi sovet hökumətinin sosializm ideologiyasına xidmət edəcək dəyərləri formalaşdırmaq siyasətinin uğursuz olduğunu göstrədi. Milli-azadlıq hərəkatının təsiri altında ilk növbədə vətən, torpaq, dil, ad-soyad, adət-ənənələr, din, soykök, müsiqi, ənənəvi geyim, bayramlar kimi dəyərlərə qayıdış prosesi başladı. Artıq, “azadlıq” anlayışı “sovet imperiyası”ndan azad olmağı nəzərdə tuturdu. Azərbaycanlıların düşüncəsində “milli azadlıq” anlayışı mədəniyyətin, həyat tərzinin bütün sahələrində ənənəvi milli mədəniyyətə, mənəvi dəyərlərə qayıdışı ehtiva edirdi. Beləliklə, azərbaycanlıların öz dəyərlərinə, tarixi irsinə marağı yeni mərhələyə qalxdı. Özünüdərk, özünəqayıdış prosesləri uşaqlara xalqın tarixini, dəyərlərini əks etdirən adların verilməsinə təkan verdi. Milli özünüdərk və özünəqayıdış prosesləri cəmiyyət və dövlət səviyyəsində mədəni irsə və adət-ənənələrə münasibətdə də özünü göstərdi. Dövlətin həyata keçirdiyi milli siyasət Azərbaycan xalqının mədəni irsinin qorunub saxlanmasına, eləcə də ümumbəşəri mədəni irsdən bəhrələnməsinə şərait yaradır. Müstəqillik illərində Azərbaycanda konfessional baxımdan özünüdərk və özünəqayıdış prosesləri ilk növbədə dövlət-din münasibətlərinin tənzimlənməsində, dini abidələrin mühafizəsində dövlətin həyata keçirdiyi milli siyasətlə, məscidlərin, sinaqoqların, kilsələrin və digər dini ocaqların bərpası, yenilərinin tikilməsi, eləcə də dini dəyərlərə - bayram və mərasimlərə

---

[43] Нурузаде Ш. Пропаганда и формирование «советских ценностей» в годы советской власти в Азербайджане. //The Caucasus and the world. – Tbilisi: - 2022. № 24, - с. 139-145 (http://ru.lazika.com.ge/2022/02/01/); Нурузаде Ш. Традиционные ценности азербайджанцев в контексте этнокультурных и этносоциальных процессов //“Tarixiy Obyektlar Va Tabiiy Maskanlar Uyg‘Unligi Asosida O‘Zbekistonning Turistik Salohiyatini Rivojlantirishning Asosiy Yo‘Nalishlari Va Istiqbollari” Mavzusidagi Xalqaro Ilmiy-Amali Konferensiyasi Maqolalari To‘Plami, 17 aprel 2024, Toshkent – s. 436-442.

qayıdışla və s. ilə xarakterizə edilir.

Burada irəli sürülən müddəalar aşağıdakı məqalədə öz əksini tapmışdır[44].

**"Qarabağ müharibələrində Azərbaycan xalqının mənəvi dəyərlərinin təzahürü"** adlı üçüncü paraqrafda azərbaycanlıların dünyagörüşü və mənəvi dəyərlər sistemində "torpaq", "vətən", "bayraq", "din", "tanrı", "igidlik", "vətənpərvərlik", "dostluq", "milli həmrəylik" kimi dəyərlərin xüsusi yer tutduğu göstərilir. Müasir dövrdə azərbaycanlıların Vətən, torpaq sevgisinin, şəhidliyə münasibətinin formalaşmasında tarixi yaddaşa (tarixi qəhrəmanlar, onların igidliklərini əks etdirən dastanlar, mahnılar, nağıl və rəvayətlər), kollektiv yaddaşa, dini baxışlara, adət-ənənələrə əsaslanan dünyagörüşü öz təsirini göstərmişdir. Qarabağ müharibələri zamanı daha qabarıq şəkildə təzahür edən bu dəyərlərin formalaşmasına bir çox amillər öz təsirini göstərmişdir. İlk növbədə bayram və mərasimlərdə aşıqların qəhrəmanlıq dastanlarını dildən-dilə ötürməsi, ailədə və cəmiyyətdə ailə namusu, Vətən namusu, torpaq sevgisi kimi dəyərlərin müxtəlif vasitələrlə aşılanması, tədris ocaqlarında qəhrəmanlıq dastanlarının tədris olması və s. gənc nəslin vətən və torpaq sevgisi ilə böyüməsinə öz müsbət təsirini göstərir. Hər bir azərbaycanlının düşüncəsində "Vətən – Anadır!", "Ana Torpaq" ifadələri vətənin ana və torpaq ilə eyniləşdirilməsində xüsusi rol oynayır. Beləliklə, SSRİ-nin parçalanması və Azərbaycanın müstəqil dövlət olması prosesləri hazırkı dövrdə mənəvi dəyərlər sistemində ənənəvi dəyərlərə qayıdışda böyük sıçrayışa gətirib çıxardı. Sözsüz ki, bu, etnopsixoloji baxımdan təbii bir proses idi. Bu proseslər Qarabağ müharibələri zamanı azərbaycançılıq, milli birlik, türkçülük, islamçılıq, dövlətçilik

[44] Nuruzadə, Ş. Azərbaycan Respublikasının milli mədəni irsin qorunması siyasəti // - Bakı: Journal of Qafqaz University – History, law and political sciences, - 2015. № 2, – s. 160-169; Nuruzadə, Ş. Azərbaycan Respublikasının multikulturalizm siyasəti və milli-mənəvi dəyərlərin qorunması // - Bakı: Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, - 2015. - №3 (51), - s. 113-118; Nuruzadə Ş. Azərbaycanda müstəqillik illərində ənənəvi dəyərlərə qayidiş prosesi // 2. Uluslararasi Balkanlar, Anadolu, Kafkasya Ve Türkistan Coğrafyasi Sanat, Kültür, Tarih Ve Folklor Kongresi, 09-12 Mayıs, 2022, Aydın-Türkiye. – s. 189-192.

kimi mənəvi dəyərlərin insanların dünyagörüşündə dərin kök saldığını göstərdi.

Bu müddəalar aşağıdakı məqalələrdə öz əksini tapmışdır[45].

**"Ənənəvi mənəvi mədəniyyətdə mənəvi dəyərlər"** adlı III fəsildə din və şəriət, qonaqpərvərlik, qarşılıqlı yardım, etnopedaqogika, xalq və dini bayramlar, etnomusiqi, folklor və xalqın mifik təfəkkürü kimi məsələlər mənəvi dəyərlər aspektindən tədqiq olunmuşdur. **"Din və şəriət"** adlı I paraqrafda xalqın dini dəyərlərinin onun dünyagörüşü, inancları, dini abidələri, dini bayram və mərasimləri, ailə-məişət münasibətləri və s-də təcəssüm olunduğu nəticəsinə gəlinir. İslam dini müsəlmanların həyat tərzinin, mədəniyyətinin, düşüncə və davranışının əsasını təşkil edir. Buna görə də islami dəyərlər azərbaycanlıların məişətində, ümumilikdə həyat tərzində aparıcı rola malikdir. İslam dini xalqın milli özünüdərkini, etnik identikliyini müəyyənləşdirən amillərdən biri olmaqla yanaşı, onun özünü vahid islam dünyasının və ya islam mədəniyyətinin tərkib hissəsi kimi qavramasına imkan verir. Azərbaycanda islamın yayılması ilə şəriət qanunları da azərbaycanlıların həyatında mühüm əhəmiyyət kəsb etməyə başladı. Şəriətdə istər dünyəvi, istərsə də dini problemlər islam nöqteyi-nəzərindən şərh olunur. Burada təsərrüfat həyatını, əxlaqi və etik normaları, müsəlman mərasimləri və bayramlarını tənzim edən qanunlar, dindarların davranışını və bütün müsəlman icmasının həyat tərzini müəyyən edən müddəalar vahid sistem halında birləşmişdir. Sovet hakimiyyəti illərində din əleyhinə aparılan kampaniyada əsas hədəflərdən biri şəriətin ailə-məişət münasibətlərindən uzaqlaşdırılması idi. Bu siyasətə baxmayaraq müsəlmanların dindarlıq dərəcəsi hələ də yüksək idi.

---

[45] Nuruzadə, Ş. Qarabağ müharibələrində Azərbaycan xalqının mənəvi dəyərlərinin təzahürü // İkinci Qarabağ müharibəsi yeni nəsil müharibə kimi. 44 günlük Vətən Müharibəsində qazanılan qələbənin ildönümünə həsr olunmuş beynəlxalq elmi-praktik konfransın materialları, - Bakı: - 21–22 oktyabr, - 2021, - s. 315-317; Nuruzadə, Ş. Qarabağ müharibələrində Azərbaycan xalqının mənəvi dəyərlərinin təzahürü // İkinci Qarabağ müharibəsi yeni nəsil müharibə kimi. 44 günlük Vətən Müharibəsində qazanılan qələbənin ildönümünə həsr olunmuş beynəlxalq elmi-praktik konfransın materialları, - Bakı: - 21–22 oktyabr, - 2021, - s. 315-317.

Müasir Azərbaycanda şəriət normalarının hüquqi əsası yoxdur və o, azərbaycanlıların adət-ənənələri və mənəvi dəyərləri şəklini almışdır. Beləliklə, Azərbaycan dünyəvi dövlət olmaqla yanaşı islam dünyasının bir hissəsidir.

Bu müddəalar aşağıdakı məqalələrdə öz əksini tapmışdır[46].

III fəslin **"Sosial institutlar mənəvi dəyərlər sistemində"** adlı ikinci paraqrafında azərbayacnlıların ənənəvi mənəvi dəyərlərinin özünü ilk növbədə etnopsixologiya, qonaqpərvərlik, etnopedaqogika, qarşlıqlı yardım kimi sosial institutlarda büruzə verdiyi göstərilir. Xalqın etnopsixoloji portreti etnomədəni proseslərlə sıx bağlıdır. Etnomədəni proseslərin tədqiqinin ən vacib cəhətlərindən biri geniş xalq kütləsi tərəfindən mədəni dəyərlərə yiyələnmə və bu prosesin baş verməsi mexanizminin müəyyən edilməsidir. Milli xarakter insanların dünyanı dərk etməsini, dünyagörüşünü, mentalitetini əks etdirən sabit mənəvi dəyərdir. Azərbaycanlıların türk dünyası ilə etnogenetik qohumluğu onların mənəvi və maddi mədəniyyət ənənələrində ifadə olunur. Eyni zamanda, azərbaycanlılar milli xarakterin, zəngin bir mənəvi aləmin, etnomədəni və etnodil birliyinin özünəməxsus xüsusiyyətlərinə malik olan müstəqil bir etnosdur. Azərbaycan xalqının xarakterinin səciyyəvi xüsusiyyətləri mifoloji təfəkkürdə, ənənəvi adi hüquq normalarında, empirik biliklərdə, müsəlman etik normalarında öz əksini tapmışdır. Xalqın etnomədəni portretini xarakterizə edən keyfiyyətlərdən biri də qonaqpərvərlik adətidir. Qonaqpərvərlik Azərbaycan cəmiyyətinn əsas sosial institutlarından biridir. Azərbaycanlıların mentalitetinin vacib cəhətlərindən biri digər xalqların nümayəndələrinə hörmətlə yanaşmaqdır. Məsələn, qohumlaşma adətini göstərmək olar. Azərbaycanlıların səciyyəvi xüsusiyyətlərindən biri də ağsaqqal və ağbirçəklərə olan münasibətdir. Azərbaycan xalq pedaqogikası tərbiyəvi ənənələrlə

---

[46] Nuruzadə, Ş. Azərbaycan Respublikasının Konstitusiyasında dövlət-din məsələləri. Azərbaycanşünaslığın aktual problemləri "Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş V Beynəlxalq elmi konfransın materialları", - Bakı: - 05-07 may, - 2014, - s. 547-550; Nuruzadə, Ş. Müasir dövrdə Azərbaycanda dini vəziyyət // - Bakı: Pedagoji Universitet Xəbərləri, Humanitar elmər bölməsi, - 2014. № 4, - s. 179-184.

zəngindir. Uşaqlarda kiçik yaşlarından valideynlərə və böyüyə hörmət tərbiyə olunur. Çoxəsrlik ənənəsi olan əməksevərliyin, böyüklərə, qohum-qonşuya hörmət tərbiyə edilməsi xüsusi əhəmiyyət kəsb edir. Kiçik yaşlarından uşaqlar ağsaqqallarla ünsiyyət qurarkən nəzakət normalarına ciddi əməl edirlər. Azərbaycanlıların mənəvi dəyərlərindən biri qarşılıqlı yardımdır. Qarşılıqlı yardım formaları bugünədək əsasən kənd yerlərində müəyyən dərəcədə qorunub saxlanmışdır. Qonaqpərvərlik, etnopedaqogika, qarşlıqlı yardım kimi sosial institutlarda ağsaqqalın statusu məsələsi mühüm rol oynayır. Ağsaqqalların rolu, cəmiyyətin sosial harmoniya içində yaşamasını təmin etmək, gənc nəsli istiqamətləndirmək və əməkdaşlıq, dəstək və həmrəylik ətrafında formalaşan ənənəvi dəyərləri gücləndirməkdə əhəmiyyətlidir. Bu təcrübə yalnız nəsillərarası əlaqələrin vacibliyini əks etdirmir, həm də kollektiv məsuliyyət və qarşılıqlı qayğının mədəni əhəmiyyətini vurğulayır. Azərbaycanlıların etnomədəni portretini xarakterizə edən digər dəyəri onun ənənəvi etiket və ya ənənəvi ədəb qaydalarıdır. Etiket normalarının formalaşmasına xalqın tarixi inkişafı, soykökü, dini inanclar, eləcə də coğrafi məkan kimi amillər təsir etmişdir. Azərbaycanlıların ailə və sosial münasibətlərdəki ünsiyyət formalarında, davranışlarında etiket normalarının islamaqədərki ayinlərlə və dini inanclarla sıx bağlılığı və xalq pedaqogikası bu gün də müşahidə olunmaqdadır. Sovet hakimiyyəti illərində ümumsovet mədəniyyətinin formalaşdırılması siyasəti ənənəvi etiket normalarına öz təsirini göstərsə də, hətta həmin dövrdə də azərabycanlılar ənənəvi etiket normalarını qoruyub saxladılar. Etiket normaları etik prinsiplərin sadə bir davranış ifadəsi deyil, burada xalqın dünyagörüşü, xarakteri, menatliteti və s. birləşir. Azərbaycanlıların etiket normalarına islamın təsiri bu gün də özünü göstərməkdədir. Ənənəvi ədəb normalarında xalq inancları və islam dininin təsiri güclüdür. Məsələn, hər-hansı bir iş haqqında (səfərə çıxmaq, qonaq getmək, ev tikmək, ailə qurmaq, ad günü təbriklərində və s.) danışdıqda "Allah qoysa", "Allahın izni ilə", "qismət" və ya "qismət olsa", "Allah amanında" kimi ifadələr işlədilir. Azərbaycanlıların estetik zövqünü, ənənəvi mədəniyyətini göstərən ənənəvi dəyəri süfrə mədəniyyətidir. Süfrə arxasında "ədəb-ərkanla"

oturmaq, yemək etiketi, süfrəarxası söhbətlər, süfrənin baş tərəfində ailənin hansı üzvünün oturması, uşaqların və gəlinlərin yeri xalqın ənənəvi mədəniyyətini xarakterizə edir.

Bu paraqrafda irəli sürülən müddəalar aşağıdakı məqalələrdə öz əksini tapmışdır[47].

III fəslin **"Bayramlar"** adlı üçüncü paraqrafında Azərbaycan xalqının milli-mənəvi dəyərləri sistemində bayramların xüsusi yer tutduğu, müasir dövrdə milli-mənəvi dəyərlərin cəmiyyətdə rolunun yüksəlməsi ilə xalq və dini bayramların insanlar üçün əhəmiyyətinin artdığı göstərilir. Bayramlar xalqın mədəniyyətinin bir çox elementlərini ehtiva edir. Xalq və dini bayramların vasitəsilə xalqın adət-ənənələri qorunub saxlanır və gənc nəslə ötürülür. Orta əsrlərdə Azərbaycan xalqının islamı qəbul etməsi ilə onun milli-mənəvi dəyərlər sistemi demək olar ki, islami dəyərlərə əsaslanmağa başladı. Bu özünü bayram və mərasimlərdə də göstərdi. Bayramlar xalq mədəniyyətinin elementlərini özündə birləşdirir və insanın milli-mənəvi dəyərlərin qorunub saxlanmasının iştirakçısı olmasına imkan verir. Beləliklə, insanlar milli-mənəvi dəyərlər sisteminin tərkib hissəsi olan bayramların daşıyıcısı rolunu oynayırlar. Dəyərlər sistemi istiqamətinin əsasında cəmiyyətin dünyəvi və sakral, insan və təbiət, fərd və cəmiyyət, mədəniyyətin ənənəvi və innovativ tərəfləri arasında seçim durur. Bayramlar bütün bu sahələrin birbaşa təmasda olduğu xüsusi bir dövrdür. Bu yanaşma özünü Novruz bayramı adət-ənənələrində, ayinlərdə göstərir. Belə ki, Novruz bayramı azərbaycanlıların tarixi yaddaşını, dünyagörüşünü, adət-ənənələrini, dini inanclarını, mifologiyasını əks etdirən özünəməxsus dəyərlər toplusudur. Novruz bayramı adət-ənənələri xalqın xeyirxahlıq, bir-birinin dərdinə şərik olmaq kimi müsbət xüsusiyyətləri əks etdirir. Xalqın milli-mənəvi

---

[47] Nuruzade, Ş. Azerbaycanlıların geleneksel aile degerleri ve çağdaş zorluları // - Ankara: II. Uluslararası insan hakları sempozyumu. Ailenin korunması hakkı, - 2019 / aprıl 29-30, - 2019. – s. 614-634; Nuruzadə, Ş.T. Müasir azərbaycanlı ailəsində milli-mənəvi dəyərlər // - Bakı: Azərbaycan arxeologiyası və etnoqrafiyası, - 2015, - № 1, s. 182-188.

dəyərləri olan bayram və mərasimlər onun etnogenezi haqqında təsəvvür yaradır. Bayram və mərasimlərin motivləri, onların əsas mövzusunu təşkil edən rəvayətlər, istifadə olunan atributlar xalqın tarixi kökləri, inanclar sistemi haqqında zəngin mənbədir. Xalq bayramları ilə yanaşı dini bayramlar da azərbaycanlıların etnomədəni, etnopsixoloji portretini tədqiq etməyə imkan verir. Dini bayram və mərasimlər Azərbaycanda yaşayan bütün müsəlman xalqlarının mənəvi dəyərləri sistemində aparıcı yerlərdən birini tutur. İslamın yayılması ilə dini bayram və mərasimlərin – Orucluq, Qurban bayramı, Məhərrəmlik mərasimi və s.-nin keçirilməsi əhalinin həyat tərzininə çevrildi. Hər bir azərbaycanlı üçün Qurban bayramı mərasimlərində iştirak etmək onun yardımlaşma prosesinin fəal subyekti kimi hiss etməsi deməkdir. Yardım edən və yardım alan mənəvi cəhətdən özünü cəmiyyətin fəal üzvü hesab edir və bu da, onu etnomədəniyyətin daşıyıcısına çevirir. Beləliklə, xalq bayramları kimi, dini bayram və mərasimlər də cəmiyyətin gündəlik həyatından fərqli olaraq insanları bir araya gətirən sosial hadisə kimi qiymətləndirilməlidir. Azərbaycan cəmiyyətində insanların bir araya gəlməsi və sosiallaşması kimi funksiyaları əsasən, Qurban, Orucluq bayramları və Məhərrəmlik mərasimi yerinə yetirir. Dini bayram və mərasimlərdə keçirilən mərasimlər ailədaxili əlaqələri, eləcə də cəmiyyətdə dini və milli həmrəyliyi gücləndirə bilmək gücünə malik olduğunu demək olar. Lakin mənəvi dəyərlər nöqteyi-nəzərindən öz əhəmiyyətinə görə bəziləri dəyişkəndir. Rəsmi dövlət bayramları dövlətin siyasi rejiminin və yaxud ideologiyanın dəyişməsi ilə aradan qaldırıla bilər. Sovet İttifaqının süqutundan sonra sovet dövrünə aid bir sıra bayramlar ləğv edilsə də, bəzi bayram və mərasimlər yenə də qeyd olunmağa davam etdi. Eyni zamanda Azərbaycan xalqı üçün tarixi və ideoloji əhəmiyyət kəsb edən və ümumxalq bayramı səviyyəsində qeyd olunan yeni bayramlar - Dövlət Bayraq bayramı və 8 Noyabr Zəfər Günü yarandı. Qeyd etmək lazımdır ki, bayramlar gənc nəslin milli kimliyinin və özünüdərkinin formalaşmasında mühüm rol oynayır.

Bu paraqrafda irəli sürülən müddəalar aşağıdakı məqalədə öz əksini tapmışdır[48].

III fəslin **"Etnomusiqi, folklor və xalqın mifik təfəkkürü"** adlı dördüncü paraqrafında etnomusiqi, folklor və mifologiyanın azərbaycanlıların mənəvi dəyərləri olan ailə-məişət münasibətləri, dini və xalq bayramları, etnopedaqogika və s. vasitəsilə nəsildən-nəslə ötürülən mədəni irs olduğu göstərilir. Mədəni irsin bu üç komponenti bir-birini tamamlayır. Azərbaycan ərazisində rəqslərin tarixi haqqında ilk mənbə kimi Qobustanın Böyükdaş qayası üzərindəki rəsmləri hesab etmək olar. Görünür, rəqslərdəki hərəkətlər insanların güclü emosiyalarını ifadə edir və bununla da ruhları özlərinə tabe etməyə çalışır. Qədim rəqslərdə insanların dünyagörüşü, məişət həyatı əks olunurdu. Rəqslər xalqın tarixində baş verən inkişaf mərhələləri, ictimai-siyasi dəyişikliklərlə əlaqəli surətdə inkişaf etmişdir. Xalq mahnıları kimi, rəqslər də xalqın ailə-məişət mədəniyyətini, onun qəhrəmanlıq, zəhmətkeşlik, vətən, ailə, dini inanclar kimi dəyərlərini təcəssüm etdirən mədəni irsidir. Məsələn, "Cəngi", "Yallı", "Qaytağı", "Qazağı", "Misri", "Cıdır" və s. qəhrəmanlığa və vətən uğrunda döyüşə çağıran hərbi rəqslər sırasına daxildilər. Bu tip rəqs havalarının ritmi insanda döyüş əzmi, rüh yüksəkliyi yaradır. Beləliklə, xalqın folklor və mifologiyası onun sosial-etnik birlik kimi ozünüdərkinin formasıdır. Folklor və mifologiya üçün daxili süjet sinkretikliyi də xarakterikdir. Milli musiqi tarix boyu formalaşmış mənəvi əxlaqi dəyərlər və zəngin ənənələr əsasında formalaşmışdır. Ənənəvi mədəniyyət, əsasən də onun tərkib hissəsi olan milli musiqi xalqın mədəni identikliyinin, mədəni kodlarının, daha doğrusu "qan yaddaşı"nın daşıyıcısıdır. Tarixən Azərbaycanda yaşayan xalqların musiqi və rəqs mədəniyyətində, folklor və mifologiyasında ümumi cəhətlərin olması təbii bir haldır. Musiqinin ritmində, məzmununda, nəğmə ənənələrindəki oxşarlıqlar və ümumiliklər əsasən müsəlman

[48] Nuruzadə, Ş.T. Azərbaycan ənənəvi bayramları xalqın milli-mənəvi dəyərləri sistemində // - Bakı: Azərbaycan arxeologiyası və etnoqrafiyası, - 2015. - № 2, – s. 209-214.

xalqlarda özünü daha bariz göstərir. Azərbaycan xalqlarının çoxəsrlik yaxın qonşuluq münasibətləri ölkə miqyasında etnik və mədəni ənənələrin yaxınlaşmasına gətirib çıxarmışdır. Bir çox hallarda isə bu və ya digər qonşu xalq tərəfində xalqın dəyərləri özününküləşdirilir. Məsələn, "Sarı gəlin" xalq mahnısını ermənilərin öz mahnıları kimi bəyan etmələrini göstərmək olar. Hətta Azərbaycan bəstəkar mahnıları, məsələn, "Məktəb illəri" mahnısını erməni dilinə tərcümə edib özününküləşdirirlər. Folklor mərasimayin ənənəsi və gündəlik məişət mədəniyyəti ilə sıx bağlıdır. Ailə-məişət nəğmələri, ritual ağılar və epik, tarixi, məhəbbət, əmək, komik mahnılar, uşaq folkloru və s. xalqın etmotarixini, ailə-məişət münasibətlərini, dini inanclarını, tarixi hadisələri, ən əsası isə tarixən formalaşmış dünyagörüşünü, daxili aləmini özündə yaşadır. Onun xalqın mənəvi dəyərləri sistemində yer tutmasını da bununla izah etmək olar. Qədim mifik təsəvvürə görə etnomusiqi və rəqs o biri dünya, ruhlar aləmi ilə bağlıdır. Aşıq sənətində musiqi, poeziya, təhkiyə, rəqs, pantomim, teatr sənəti elementləri birləşmişdir. Aşıqlar folklorun, dastanların və aşıq havalarının nəsildən-nəslə ötürülməsində və bununla da bu sənətin qorunub saxlanmasında mühüm rol oynayırlar. Aşıq havaları xalqın dünyagörüşünü, səciyyəvi xüsusiyyətlərini, igidlik, vətənpərvərlik, mədəni irsi olan dastanlar və s. dəyərlərini özündə əks etdirir. Folklorda geniş yayılmış qəhrəmanlıq eposları milli hisslərin, qəhrəmanlıq, igidlik, vətənpərvərlik kimi dəyərlərin təbliğ olunmasında, milli birliyin qorunub saxlanmasında böyük rol oynayır. İstər əfsanəvi və istərsə də, tarixi məzmunlu qəhrəmanlıq dastanları xalqın dünyagörüşü və tarixi ilə sıx bağlıdır.

Bu paraqrafda irəli sürülən müddəalar aşağıdakı məqalədə öz əksini tapmışdır[49].

IV fəsil **"Ənənəvi maddi mədəniyyətdə mənəvi dəyərlər"** adlanır. Bu fəsildə ənənəvi milli geyimlər, xalça məmulatları, qida-

---

[49] Nuruzade, Ş. Halkın milli manevi değeri olarak azerbaycanlıların geleneksel düğün töreni. Kültür Evreni-Unıverse Culture-Мир Культуры / - Kars: 2018 / Sayı- 35. S. 64-77.

lanma sistemi kimi maddi mədəniyyət sahələrində mənəvi dəyərlərin təzahürü məsələləri araşdırılmışdır.

Fəslin **"Ənənəvi geyim və bəzəklər"** adlı birinci paraqrafında geyimlərin maddi və mənəvi mədəniyyət nümunəsi kimi Azərbaycan xalqının etnik özünəməxsusluğunun göstəricilərindən biri olduğu göstərilir. Azərbaycanlıların ənənəvi geyim kompleksində istifadə olunan məmulat xalqın dünyagörüşü, milli xarakteri, həyat tərzi, təsərrüfat həyatı, başqa xalqlarla tarixi əlaqələri və qarşılıqlı təsir məsələləri, xalq incəsənəti, cəmiyyətin ictimai qrupları arasındakı sosial-zümrə fərqləri və s. haqqında təsəvvür yaradır. Beləliklə, geyimlərin, eləcə də geyim kompleksinin vacib atributunu təşkil edən bəzək əşyalarının müasir azərbaycanlıların mənəvi dəyərlər sistemində yeri onun etnomədəniyyətinin inkişaf mərhələləri, eləcə də etnogenezi ilə sıx bağlılığını göstərməsi ilə müəyyən edilməlidir. Arxeolji qazıntılarda kəmərlər və digər bəzək əşyalarının aşkar olunması azərbaycanlıların zərgərlik sənətinin və digər sənətkarlıq növlərinini xalqın mədəni irsi kimi formalaşmasının tarixinin qədim dövrlərə gedib çıxdığını sübut edir. Geyim və bəzəklər ilkin olaraq insanları soyuqdan qorumaq funksiyasını yerinə yetirməklə yanaşı onun daxili aləmini, zövqünü və mədəni üstünlüklərini əks etdirir. Geyim və bəzəklərin üzərindəki naxışların və müxtəlif daşların ibtidai insanların şər qüvvələrdən qorunmaq üçün boyunlarına heyvan sümükləri asmalarının, bədənlərinə döymə vurmalarının ilkin variantı olduğunu da demək olar. Ənənəvi qadın geyim və bəzəklərindəki müxtəlif tikmələr, zınqırovlar və sikkələr də vaxtilə yuxarıda qeyd olunan fuksiyanı yerinə yetirdiyi haqqında inancın olmasını göstərir. Azərbaycanlıların ənənəvi qadın baş geyimlərinin üzərindəki tikmələr və bəzək əşyaları da görünür qoruyucu funksiya daşıyırdı. Bu inanc digər türk xalqlarında da müşahidə olunur. Azərbaycanlıların ənənəvi qadın geyim və bəzəklərində quş obrazını da quş kultu ilə əlaqələndirmək olar. Məsələn, Herati kələğayılarının üzərindəki və Kitabi-Dədə Qorqudda adı çəkilən "çiyni quşlu çübbə-don"dakı quş təsvirləri onu geyinən qadını, döyüşçünü şər qüvvələrdən qorumaq məqsədi daşıyırdı. Qədim xalqlarda geyimin mifik təfəkkürdə rəmzi funksiya daşıması onun dünyagörüşü haqqında baxışlar sistemində

öz əksini tapmasındadır. Bu yanaşma, ənənəvi geyimlərin üzərindəki bəzəklərin və bəzək əşyalarının semantik məna daşıdığını söyləməyə əsas verir. Ənənəvi geyim mədəniyyətinin xalqın qədim tarixi və etnogenezi ilə sıx əlaqəli olduğunu isə Azərbaycanın tarixi ərazilərində rast gəlinən toponimlər də təsdiqləyir. İslamın yayılmasınadək azərbaycanların baş geyimlərində şər qüvvələrdən qoruyucu vasitə kimi müxtəlif naxış və bəzək məmulatlarına rast gəlinirdisə, artıq islamın qəbul edilməsi ilə kişi papaqlarına islamla əlaqədar sözlərin yazılması və yaxalarına müxtəlif dualar asılması hallarına rast gəlinirdi. Eləcə də qadınlar da bu məqsədlə Qurandan surələr yazılmış dualar gəzdirər və əsasən imkanlı qadınlar boyunlarına içində kiçik ölçüdə Quran olan "Quranqabı" adlanan medalyon taxardılar. Qeyd edildiyi kimi, geyim və bəzəklər xalqın etnomədəniyyəti haqqında məlumat verir. Bu məqsədlə də, bu bölmədə azərbaycanlılar üçün xarakterik olan geyim materialları da dəyərlər baxımından təhlil edilmişdir. XIX əsrdə azərbaycanlıların ənənəvi milli geyimləri tipoloji cəhətdən əvvəlki dövrlərin geyimlərindən o qədər də fərqlənmirdi. Xalq geyimlərini gündəlik geyimlər, mərasim geyimləri, müxtəlif sosial qrupların peşə mənsubiyyəti ilə əlaqədar geyimlər, toy və bayram geyimləri, mövsümi xarakterli geyimlər, dini zürmələrə məxsus geyimlər və s. tiplərə təsnifləndirmək olar. Ümumiyyətlə, azərbaycanlı qadınların müəyyən yaş həddinə çatdıqda təmtəraqlı geyimlərdən və bəzək əşyalarından az istifadə etmələri milli mentalitetlə, əsasən də abır-həya məsələsi ilə əlaqəlidir. Beləliklə, geyim xalqın milli xarakterinin göstəricisi kimi də çıxış edir. Artıq XX əsrin əvvəllərində ənənəvi geyim növlərinin üzərindəki naxış və bəzək əşyaları öz ilkin mənasını itirmişdi. Bütün bunlar xalqın sadəcə yüksək zövqünü nümayiş etdirir və insanların sosial və yaş fərqlərinin göstəricisi rolunu oynayırdılar. Azərbaycanlıların baş geyimləri qeyrət, namus kimi dəyərlərlə əlaqəli qəbul olunur. Məsələn, papağın hansı funksiyanı daşıdığına atalar sözlərində də rast gəlinir: "Başdan gedən papaq bir də qayıtmaz", "Əynində donu yox, başına papaq axtarır", "Qazan qapaqsız olmaz, igid – papaqsız", "Qızı otaqlıya yox, papaqlıya ver" və s. Bu nümunələr papağın təkcə geyim

elementi deyil, həm də sosial və mədəni mənalar daşıyan bir rəmz olduğunu göstərir. Beləliklə, ənənəvi geyimlərin azərbaycanlıların mədəni irsi kimi əhəmiyyətini aşağıdakı kimi müəyyən etmək olar: azərbayacnlıların geyim mədəniyyətində ibtidai baxışlar və islam amili əks olunmuşdur. Ənənəvi qadın geyimlərində ritual xarakterli bəzək əşyaları, eləcə də parçaların üzərində bu tip ornamentlər üstünlük təşkil edirdi: bayram geyimləri etnik funksiya ilə yanaşı estetik funksiya da daşıyırdı, geyimin formasının və rənginin seçimində azərbaycanlıların ədəb qaydalarına müvafiq olaraq qadının yaşı və ailə vəziyyəti nəzərə alınırdı. Qeyd edildiyi kimi, milli geyimlər azərbayacnlıların qədim tarixə malik mədəni və iqtisadi əlaqələrini göstərən zəngin mənbə kimi bu gün də mühüm əhəmiyyət kəsb edir. Ənənəvi geyimlərin və eləcə də istifadə olunan parçaların, bəzək əşyalarının adlarına digər xalqların leksikonunda da rast gəlinir. Azərbaycanlıların geyim mədəniyyətinə təsir edən növbəti hadisə 1813-cü il Gülüstan müqaviləsi və 1828-ci il Türkmənçay müqaviləsi ilə Azərbaycan ərazilərinin İran və Rusiya arasında bölünməsi oldu. XIX əsrdə Azərbaycanda kapitalizmin sürətlə inkişafı, bununla da yeni zümrələrin burjuaziya və proletariatın ortaya çıxması prosesləri də geyim mədəniyyətinə öz təsirini göstərmişdir. Lakin Avropa tipli yeni geyim uzun müddət ənənəvi milli geyim tipi ilə yanaşı dəbdə oldu, onu tam sıxışdırıb çıxara bilmədi. Yeni tipli geyim əsasən, şəhərlərdə burjuaziya, ziyalılar və yüksək ranqlı tacirlər arasında yayılırdı, sadə əhali isə milli geyimə üstünlük verirdi. Sovet hakimiyyətinin ilk illərindən ənənəvi geyim "gerilik" əlaməti, "burjua" geyimi kimi tənqid edilməyə başlandı. Digər tərəfdən də istehsalatın xüsusiyyətləri geyimin, xüsusilə də, şəhər geyiminin dəyişməsini tələb edirdi. Müasir dövrdə ənənəvi xalq geyimi artıq folklor nümunəsinə çevrilmişdir. Eyni zamanda, müxtəlif xalq bayramlarının, əsasən də Novruz bayramının qeyd olunması zamanı folklor qrupları tərəfindən milli geyimlər nümayiş etdirilir. Lakin müasir insanlar artıq milli geyimlərdən istifadə etməsələr də, xalqın tarixini əks etdirdiyindən onun üçün dəyərlidir və onun mədəni irsinin vacib elementini təşkil edir.

Bu paraqrafda irəli sürülən müddəalar aşağıdakı məqalədə öz əksini tapmışdır[50].

IV fəslin **"Azərbaycanlıların dünyagörüşündə xalça məmulatları"** adlanan ikinci paraqrafında müasir dövrdə qloballaşma proseslərinə baxmayaraq azərbaycanlıların məişətində, əsasən də milli-mənəvi dəyərlər sistemində xalça məmulatlarının mühüm yer tutduğu göstərilir. Xalça və xalça məmulatlarının azərbaycanlılar üçün mənəvi dəyəri ilk növbədə, onun xalqın mədəni irsi olmasındadır. Hər bir xalçaçı öz toxuduğu xalçalara xüsusi sənət əsəri kimi yanaşır. Azərbaycanlılar üçün xalça maddi təminatla yanaşı estetik əhəmiyyət kəsb edir. Qız ailə qurduqda onun cehizliyində xalça, kilim və s. xalça məmulatları (otağın sayına görə) xüsusi yer tutur. Bölgələrdə qızlar öz cehiz xalçalarını toxuyardılar. Öz əlləri ilə toxunan xalçanın cehiz aparılması onun üçün, eləcə də onun gələcək ailəsi üçün, əsasən də övladları üçün xüsusi mənəvi dəyər kəsb edirdi. Xalqın həyat və məişətində xalçaçılıq sənətinin geniş yer tutması ilə bağlı xalçaçılar arasında bir sıra inanclar, ayinlər, adət-ənənələrlə yanaşı oyun və əyləncələr də mövcud idi. Azərbaycanda xüsusi qonaqlara xalça hədiyyə verilməsi adəti hələ də qalmaqdadır. Qonaq gəldikdə evə xalçalar sərilir. Burada azərbaycanlıların ailə münasibətləri, qonaqpərvərlik adətləri özünü göstərir. Azərbaycanlılar xalçanın üzərində ayaqqabı ilə gəzməzlər. Xalçaya bu cür münasibət digər türk xalqlarında, məsələn, qazaxlarda, qırğızlarda, özbəklərdə də bugünədək qalmaqdadır. Bunun bir neçə səbəbi ola bilər: xalça onu toxuyan insanların ağır və uzunmüddətli zəhmətinin nəticəsidir; yun və ipəkdən toxunduğundan üzərində ayaqyalın gəzmək insanın sağlamlığı üçün faydalıdır. Xalça məmulatlarının üzərindəki təsvirlərin arxeoloji materiallarda, mifologiyada və rəmzlərdə öz əksini tapması onların azərbaycanlıların tarixinin və etnomədəniyyətinin tərkib hissəsi olduğunu sübut edir. Azərbaycan xalçalarında

[50] Nuruzadə, Ş. Milli geyimlər xalqın etnomədəni irsi kimi (Naxçıvan və Azərbaycanın digər bölgələrinin materialları əsasında) // - Naxçıvan: Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Elmi əsərləri, - 2022. № 1, – s. 114-119.

geniş rast gəlinən ornamentlərə digər türk xalqlarının, eləcə də onlarla bir bölgədə yaşamış digər xalqların xalça çeşnilərində də rast gəlmək olar. Məsələn, kudin buryatların gəlin cehizi olan sandık (sendek – buryat dilində) və xalçalarının üzərindəki ornamentlərin elementləri qırğızların və eləcə də digər türk xalqlarının ornamentləri ilə eynilik təşkil edir. B.E.Petri həmin ornamental motivləri üç qrupa ayırır: 1. “günəş və ay”, 2. “qoç buynuzu” və 3. “həndəsi ornamentlər”[51]. Qeyd etmək lazımdır ki, bu ornamentlər Azərbyacan, eləcə də digər türk xalqların xalçalarının və digər maddi mədəniyyət məmulatlarının semantikasının əsasını təşkil edir. Azərbaycan nağılları da bütün bu təsvirlərlə əlaqədar inancların azərbaycanlıların mifik təfəkkürünün məhsulu olduğunu təsdiqləyir. Müasir dövrdə ölkədə dövlət səviyyəsində xalçaçılığın qorunması üçün bir sıra işlər görülür. Tarixən və hazırda xalq sənətkarları, ustalar, rəssamlar tərəfindən əl ilə toxunan Azərbaycan xalçalarının qorunması, öyrənilməsi, xalça sənətinin təbliği və inkişaf etdirilməsi ilə əlaqədar yaranan münasibətləri tənzimləmək məqsədilə 2004-cü ildə “Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında” Qanun[52] qəbul edilmişdir.

Bu paraqrafda irəli sürülən müddəalar aşağıdakı məqalədə əksini tapmışdır[53].

IV fəslin **“Qidalanma sistemi etnik mənsubiyyətin göstəricisi kimi”** adlı üçüncü paraqrafında qidanın xalqın mədəniyyətinin həyati vacib aspektlərini ortaya çıxardığı və bununla da informasiya daşıyıcısına çevrildiyi göstərilir. Gündəlik və bayram yeməklərini, qablar və inventarı, rəmzi məkan rolu oynayan süfrə mədəniyyətini

---

[51] Петри, Б.Е. Орнамент кудинских бурят // Сборник Музея Антропологии и Этнографии АН СССР. СПб: 1918, - 215-251 с., s. 228[электронный ресурс] https://www.uochnp.ru/file/4385/petri_b._e._ornament_kudinskih_buryat._spb._1918.pdf

[52] Azərbaycan Respublikasının Mədəniyyət və Turizm qanunvericiliyi toplusu, I c. [2 cilddə]. Bakı: Avrasiya Press, - 2011. – 522 - .s 224.

[53] Nuruzadə, Ş. Azərbaycanlıların məişətində xalça və xalça məmulatlarının yeri // Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin “Xəbərlər”i, İctimai və humanitar elmlər seriyası, - 2017. № 3, Cild 13, - s. 161-168.

və qonaqpərvərliyi geniş mənada yemək mədəniyyəti kimi səciyyələndirmək olar. Xalqın qidalanma sistemini ilk növbədə ümumtürk və ümumislam mədəniyyəti ilə əlaqəli şəkildə tədqiq etmək məqsədyönlüdür. Azərbaycanlıların qidalanma sistemi qədim tarixə malikdir. Onun əsas səciyyəvi xüsusiyyətləri xalqın etnomədəniyyətinin inkişaf xüsusiyyətləri ilə bağlıdır. Yemək və içkilərin insan orqanizmində funksiyaları da müxtəlifdir. Hər şeydən əvvəl qida insanın bioloji tələbatını ödəyir. Azərbaycanlıların ənənəvi yemək və içkilərinin rəngarəngliyinə ölkə ərazisindəki iqlim qurşaqlarında becərilən məhsulların zənginliyi də şərait yaradır. Qidalanma sistemi eyni zamanda insanlar arasında sosial ünsiyyətin yaradılmasında mühüm rol oynayır. İnsanların bu və ya digər səbəblərdən bir süfrə arxasında toplanmaları onlar arasında ünsiyyətin ən vacib formalarından biridir. Hər-hansı bir mərasim süfrəsi arxasında yemək yeyilməsi də sosial ünsiyyətin rəmzi əhəmiyyətini gücləndirmək məqsədi daşıyır.  Azərbayacnlılar qidaya allahın neməti, bərəkət, qismət kimi yanaşırlar. Ümumiyyətlə, qida məhsulları insanın yaşaması üçün vacid olduğundan onun üçün mühüm əhəmiyyət kəsb edib. Bu da, öz növbəsində, zaman keçdikcə onun əldə edilməsi və bol olması üçün müxtəlif dini ritualların keçirilməsi ilə nəticələnmişdir. Nəticədə, bir sıra həyati vacib qida məhsulların, məsələn, taxılın, çörəyin, yumurtanın və s., eləcə də yemək və içkilərin müqəddəsliyi haqqında təsəvvürlər formalaşmışdır. Bunlar tanrının, eləcə də ruhların şərəfinə, yəni onları razı salmaq üçün mərasim yeməklərinin yaranması ilə nəticələndi. Məsələn, Xıdır Nəbi qovurğası, Xıdır Nəbi kömbəsi, Xıdır Nəbi xəşili kimi yeməklər ruhlar üçün bişirilirdi. Mərasim yeməkləri arasında isə hədik və halva xüsusi yer tutur. Bu yeməklər, adət-ənənələrə əsasən, dini və mifik inanclara uyğun olaraq hazırlanan və müəyyən mərasimlərdə istifadə olunan qidalardır.

Azərbaycanlıların qidalanma mədəniyyətində yeməyin yaş-cinc kateqoriyasına və statusa görə paylanması da xalqın etnomədəniyyətinin xüsusiyyətlərini göstərir. Məsələn, "ağsaqqalın payı", "böyüyün payı", "kiçiyin payı", "atanın payı" və s. ifadələrin bu bölgüdən ortaya çıxdığını demək olar. Yeməyin bu prinsipə görə paylanması onun ictimai sistemin rəmzi rolu oynadığını deməyə

imkan verir. Beləliklə, gündəlik və bayram günlərində evdə açılan süfrələr xalqın milli-mənəvi dəyərlər sisteminin tərkib hissəsi olan yeməklər, yemək mədəniyyəti, qonaqpərvərliyi haqqında zəngin mənbədir. Azərbaycanlılar üçün  yeməklər və içkilər təkcə qidaya olan fizioloji tələbat baxımından əhəmiyyət kəsb etmir, milli yemək və içkilərin hazırlanmasında insanların mətbəx mədəniyyəti, bilik və bacarıqları, təcrübələri əks olunur. Bayram yeməkləri, eyni zamanda xalqın dini inancları haqqında da təsəvvür yaradır. Məsələn, Novruz bayramında süfrəyə qoyulan şirniyyat növləri – şəkərbura, şorqoğal və paxlava xalqın ibtidai astral inanclarını əks etdirir. Qida xalqın etnomədəni irsinin göstəricisidir. Etnoqrafik baxımdan yemək və içkilərin resepti və hazırlanma qaydaları deyil, onun etnomədəni mahiyyəti, ictimai funksiyası nəzərdən keçirilməlidir. Buna görə də, gündəlik və mərasim yeməklərinə, yemək və içkilərin adlarına xalqın yaddaşının daşıyıcısı, etnomədəni tarixinin göstəricisi kimi yanaşılmalıdır.

**“Ailə-məişət münasibətləri mənəvi dəyərlər sistemində”** adlı V fəsildə ailədaxili münasibətlər, toy və yas adətləri xalqın ənənəvi mənəvi dəyərlərinin daşıyıcısı kimi araşdırılmışdır. **“Ailədaxili münasibətlər”** adlı birinci paraqrafda azərbaycanlıların mənəvi dəyərlərinin hazırkı dövrədək qorunub saxlanmasında ailə institutunun mühüm əhəmiyyət kəsb etdiyi nəticəsinə gəlinir. Toy və yas adətləri, etiket qaydaları, qonaqpərvərlik, etnopedaqogika və s. kimi dəyərlər ailə-məişət münasibətləri vasitəsilə nəsildən-nəslə  ötürülür. Ailə milli yeməklərin və içkilərin də yaşadılmasında mühüm rol oynayır. Bu dəyərlərin hər birində xalqın çox sayda dəyərləri – folklor, mifologiya, nağıl və rəvayətlər, xalq oyunları (əsasən uşaq oyunları) və s. tərənnüm olunur. Beləliklə, ailə xalqın tarixən formalaşmış adət-ənənələrinin, dünyagörüşünün cəmləşdiyi bir institutdur. Sovet hakimiyyətinin ilk illərindən sovet hökumətinin hüquqi və ailə-nikah münasibətləri sahəsində yeritdiyi ailə siyasəti ənənəvi patriarxal azərbaycanlı ailəsinin dağılmasına səbəb oldu. Lakin onun ailə siyasətinə baxmayaraq azərbaycanlı ailəsi öz ənənəviliyini müəyyən dərəcədə olsa da qoruyub saxladı. Məsələn, həmin dövrdə də azərbaycanlı ailəsində şəriət qanunları mühüm rol oynayırdı və hər

bir evdə mütləq Qurani-Kərim var idi. Azərbaycanlıların ənənəvi ailə dəyərlərinin əsasında türk amili, islam amili və Qafqaz amili durur. Müasir azərbaycanlı ailəsində türk xalqlarına xas ümumi dəyərlər üstünlük təşkil edir. Azərbaycanlıların ailə dəyərləri onun mədəniyyətinin səciyyəvi xüsusiyyətlərinin göstəricisidir. Xalqın ənənəvi ailə dəyərləri onun tarixən formalaşmış adət-ənənələri, dini inancları, mentaliteti, təsərrüfat məişəti əsasında formalaşmışdır. Ailədaxili münasibətlərdə ata-anaya, nənə-babaya münasibət xüsusi yer tutur. Kiçiklərin böyüklərə, uşaqların valideynlərə, qadınlara, qocalara hörmət etmələri vacibdir. Nikah və ailə institutunun sabitləşməsi, yüksək ailə dəyərlərinin bərpası, ailə-nikah münasibətlərində gələcəkdə yarana biləcək neqativ halların qarşısının alınması üçün milli-mənəvi dəyərlərin adi və kütləvi şüurda möhkəmlənməsi və onların nüfuzunun artması mühüm əhəmiyyət kəsb edir. Tarixi-müqayisəli tədqiqat belə bir nəticəyə gəlməyə imkan verir ki, müasir azərbaycanlı ailəsi müxtəlif aspektlərdə sivilizasiyanın təsirinə məruz qalır, eyni zamanda müəyyən dərəcə olsa da öz ənənəvəliyini, ənənəvi milli-mənəvi dəyərlərlər sistemini qorunyub saxlayır.

Burada gəlinən nəticələr aşağıdakı məqalədə əksini tapmışdır[54].

V fəslin **“Toy adətləri”** adlı ikinci paraqrafında ailə institutunun nəsildən-nəslə ötürdüyü dəyərlərdən birinin də toy mərasimləri olduğu göstərilir. Öz əhəmiyyətinə görə toy mərasimləri xalqın ənənəvi mədəniyyətinin nisbətən sabit komponentlərindən birini təşkil edir. Ənənəvi toy mərasimlərində xalqın bir sıra dəyərləri yaşadılır. Bu mərasimlərin formalaşmasını ümumtürk, ümumislam kontekstində nəzərdən keçirmək lazımdır. Eyni zamanda, xalqın toy mərasimlərinin kökləri islamaqədərki dövrə gedib çıxır. Müasir dövrdə toy mərasimlərində yerinə yetirilən islamaqədərki inanclar sadəcə xalqın adət-ənənəsi, özünəməxsusluğu formasını almışdır. Beləliklə, toy mərasimləri xalqın həyatı ilə bağlı bütün digər ictimai hadisələrdən zənginliyi ilə fərqlənir. Azərbaycanlıların milli-mənəvi

[54] Nuruzade, Ş. Azerbaycanlıların geleneksel aile degerleri ve çağdaş zorluları // - Ankara: II. Uluslararası insan hakları sempozyumu. Ailenin korunması hakkı, - 2019 / aprıl 29-30 2019. – s. 614-634.

dəyərlər sistemində toy adətlərinin yerinin müəyyən edilməsi üçün ənənəvi toy mərasimləri və müasir dövrdə onlarda baş verən dəyişikliklər müqayisəli təhlil edilmişdir. Toy mərasimlərində qorunub saxlanmış islami dəyərlərdən biri toydan əvvəl kəbin kəsilməsidir. Toydan iki-üç gün əvvəl oğlanın evinə gəlinin qardaşları, əmisi, dayısı, bibisi və digər yaxın qohumları gəlinin cehizini gətirirlər. Qızn çehizlərinə qırmızı rəgdə lent bağlayırlar. Burada da islamaqədərki inanclar özünü göstərir. “Şaxbəzəmə” adlanan mərasim də qədim oğuz türklərinin toy mərasimlərində icra olunardı. Belə ki, yeni ailə quran iki gənc yeni həyata başlayır. Onlar yeni nəslin dünyaya gəlməsinə, həmin nəslin xalqın adət-ənənələri əsasında tərbiyə edilməsinə və bununla da həyatın davamlılığını təmin etməyə dair öz öhdəliklərini yerinə yetirməlidirlər. Azərbaycanlıların milli-mənəvi dəyərləri olan milli musiqisinin və rəqslərinin qorunub saxlanmasında və nəsildən-nəslə ötürülməsində toy mərasimləri böyük əhəmiyyət kəsb edir. Toy nəğmələri xalqın həyatını özündə əks etdirir. Xalqın bütövlükdə daxili aləmi, arzu və istəyi, düşüncəsi, sevinci, dar gündə kədəri öz əksini toy musiqisində, nəğmələrində tapır. Bir qayda olaraq, toylarda milli güləş, cıdır, atoynatma və s. oyun və əyləncələr təşkil olunur, xüsusi mahnılar, muğamlar oxunurdu. Ənənəvi toy şənlikləri saz, qara zurna, qoşanağara ilə müşayiət olunurdı. Toy mərasimləri xalqın ənənəvi dəyərlərinin – qonaqpərvərlik, birlik, mifoloji təfəkkür, şənlənmək mədəniyyəti, etiket normaları və s. kimi mənəvi dəyərlərin nəsildən-nəslə ötürülməsində, milli kimliyin qorunmasında mühüm rol oynayır. Çox təəssüflə qeyd etməliyik ki, tədricən ənənəvi toy mərasimlərinin məzmunu və forması dəyişmiş, burada icra olunan xalq oyun və əyləncələrinin əksəriyyəti də məişətdən çıxmış, yalnız folklor nümunələri kimi qalmışdır.

Bu paraqrafda gəlinən nəticələr aşağıdakı məqalədə öz əksini tapmışdır[55].

---

[55] Nuruzade, Ş. Halkın milli manevi değeri olarak azerbaycanlıların geleneksel düğün töreni. Kültür Evreni-Unıverse Culture-Мир Культуры / - Kars: Yıl-Year-Год 2018 / Sayı-Number 35. S. 64-77.

V fəslin **“Yas adətləri”** adlı üçüncü paraqrafında göstərilir ki, ailə institutunun nisbətən sabit dəyərlərindən biri yas adətləridir. Yas və dəfn adətləri xalqın dünyagörüşünü, mifologiyasını, adət-ənənələrini, dini inanclarını, etiket normalarını, eləcə də milli xarakterini və s. dəyərlərini özündə əks etdirir. “Ölüm” və “həyat” anlayışları “zaman” və “əbədilik”, “indiki həyat”, “gələcək”, “keçmiş”, “tale” və “yaddaş” kimi anlayışlarla sıx bağlıdır. İnsanlar bütün bunların cavabını dində, mifologiyada, “həyat” və “o biri dünya” haqqında təsəvvürlərdə axtarmışlar və axtarmaqda davam edirlər. Yas adətlərində “ölüm” və “həyat” haqqında təsəvvürlər azərbaycanlıların dünyagörüşündə xüsusi yer tutur. İslamda bu dünyada yaxşı əməllər edən insanların öldükdən sonra diriləcəkləri haqqında inam mövcuddur. Ölümlə bağlı inanclar və yas mərasimində həyata keçirilən ayinlər, şübhəsiz ki, insanın ölümü dərk etmək, öldükdən sonra nələrin baş verəcəyini anlamaq istəyindən və onun qarşısında qorxudan və ya hər hansı bir inancdan – “axirət dünyasına inam”, “ölünün allah qarşısında günahlarının bağışlanması”, “ölünün ruhunu şad etmək” və s.-dən irəli gəlir. Dəfn adətlərində həyata keçirilən ayinlər, oxunan dualar, ölü dəfn edildikdən sonra məzara gülab çilənməsi, yasa gələnlərə halva verilməsi, onların əllərinə gülab tökülməsi məhz insanların “o dünyada”, yəni “axirət dünyasında” günahlarının bağışlanmasını allahdan diləmək niyyətini güdür. Beləliklə, azərbaycanlıların milli-mənəvi dəyərlər sistemində ölümlə, yasla, dəfnlə bağlı inanclar xüsusi yer tutur. Artıq qeyd edildiyi kimi, azərbaycanlıların yas və dəfn adətlərində bir sıra dəyərlər – adət-ənənələr, dünyagörüşü, dini baxışları, etiket normaları və s. qorunub saxlanır.

Bu paraqrafda gəlinən nəticələr aşağıdakı məqalədə öz əksini tapmışdır[56].

Tədqiqatın **Nəticə** hissəsində azərbaycanlıların mənəvi dəyərləri probleminin etnoqrafik xüsusiyyətlərinin araşdırılması aşağıdakı nəticələrə gəlməyə imkan verir:

- İlk növbədə, müxtəlif nəzəri yanaşmalara istinadən qeyd edilməlidir ki, milli-mənəvi dəyərlər xalqın maddi və mənəvi

---

[56] Nuruzadə, Ş. Azərbaycanlıların yas adətləri ilə bağlı bəzi inancları mənəvi dəyərlər sistemində.// - Bakı: Milli Azərbaycan Tarix Muzeyi, - 2018. s. 252-262.

mədəniyyətində təzahür edir və eyni zamanda onların formalaşmasına təsirini göstərir. Milli-mənəvi dəyərlər xalqın milli ruhu, milli identikliyidir. Mənəvi dəyərlərin etnoqrafik tədqiqi xalqın dünyagörüşünün formalaşmasına təsir edən amillərə, etnomədəni tarixinə, siyasi proseslərə, sosial institutlara, maddi və mənəvi mədəniyyətə fəlsəfi, etnopedaqoji, dini və s. yanaşmanı tələb edir;

- Mədəni relyativizmin nümayəndələrinin də irəli sürdükləri tezisdə göstərildiyi kimi, hər bir xalq bütöv sistem kimi özünəxas mədəniyyətini və dəyərlər sistemini yaradır. Onlar hesab edirdilər ki, mədəniyyətlər universal meyarlarla deyil, yalnız öz daxili kontekstləri çərçivəsində qiymətləndirilməlidir. Bu yanaşmaya görə, hər bir mədəniyyət öz tarixi, coğrafiyası və sosial şərtləri əsasında inkişaf edir və mədəni müxtəliflik insan cəmiyyətinin zənginliyini təşkil edir;

- Qarabağ müharibələri bizə milli qəhrəmanların, igidliyi əks etdirən rəvayətlərin, mahnı və rəqslərin və s. mənəvi dəyərlər kimi qəbul olunması prosesini izləməyə imkan verdi. Tarixi- müqayisəli təhlil, kross-mədəni və müşahidə metodu belə bir nəticəyə gəlməyə imkan verdi ki, xalqın çətin günlərində ənənəvi milli dəyərləri yeni güclə təzhür edir və onun milli birliyinin güclənməsinə təkan verir;

- Ənənəvi mənəvi mədəniyyətin milli-mənəvi dəyərlər baxımından araşdırılması belə bir nəticəyə gəlməyə imkan verir ki, din və şəriət normaları, sosial institutlar, bayram və mərasimlər, etmomusiqi, folklor və xalqın mifik təfəkkürü xalqın mənəvi dəyərləri sistemində mühüm yer tutur, onlar da özlərində bir sıra dəyərləri daşıyır və onların nəsildən-nəslə ötürürlməsində vasitəçi rolunu oynayır. Azərbaycanlılar tarixən özünəməxsus dini dəyərlərə sahibdir, dini ayinləri gündəlik yerinə yetirməsələr də hər bir azərbaycanlı özünü müsəlman hesab edir və dini dəyərlər onun mənəviyyatının özəyini təşkil edir;

- Azərbaycanlıların etnopsixoloji portretinin araşdırılması, onlar üçün səciyyəvi olan normaların dəyərlər kimi formalaşma mexanizmini müəyyən etməyə imkan verir. Bu yanaşma, xalqın tarixi, mədəniyyəti, adət-ənənələri və sosial münasibətləri ilə bağlı normativ dəyərlərin yaranması və inkişaf dinamikasını anlamaq

baxımından mühüm əhəmiyyət kəsb edir. Mifologiya, milli musiqi, nağıl və rəvayətlər, atalar sözləri, adət və şəriət normaları, milli etiket qaydaları, empirik biliklər, ailə-nikah münasibətlərində davranış normaları, adət-ənənələr, bayram və mərasimlər xalqın etnoportreti haqqında, dəyər öncəlikləri haqqında təsəvvür yaratmağa imkan verir;

- Müasir dövrün çağırışları nəticəsində indiki dövrdə bir çox dini bayram və mərasimlər unudulmuşdur, digər tərəfdən bir sıra proseslər (məsələn, Ermənsitanın Azərbaycana qarşı müharibəsi) xalq və dini bayram və mərasimlərə marağı artırmış, hətta yeni bayramlar yaranmışdır. Etnoloji araşdırma göstərir ki, xalq üçün mühüm əhəmiyyət kəsb edən hər hansı bir tarixi prosesdə yaranan bayram və mərasimlər mənəvi dəyər statusunu ala bilər;

- Etnomusiqi, folklor və mifologiyada bir sıra dəyərlər, ilk növbədə milli xarakter, dünyagörüşü əks olunur. Xalq musiqisi və folklor xalqın etnogenezini, etnomədəni tarixini araşdırmaq üçün dəyərli mənbədir. Onlar vasitəsilə xalqın adət-ənənələrinin, dini inanclarının, fəlsəfi baxışlarının təkamülünü izləyə bilərik. Məsələn, rəqslər, xalq musiqi ritmələri xalqın qəhrəmanlıq və döyüş əzmi, estetik zövqü, təsərrüfat həyatı, dini inancları və s. kimi dəyərləri haqqında mənbədir. Folklor və mifologiyanın dəyərlər aspektindən araşdırılması azərbaycanlıların mədəni irsinin digər xalqlar tərəfindən özününküləşdirilməsinin, tarixinin saxtalaşdırılmasının qarşısını ala bilər. Çox təəssüf ki, müasir dövrdə bir çox folklor nümunələri gənc nəslin maraq dairəsindən kənarda qalmışdır. Buna sovet milli siyasəti, eləcə də müasir dövrdə Avropaya inteqrasiya və qloballaşma prosesləri təsir etmişdir;

- Ənənəvi maddi mədəniyyətin mənəvi dəyərlər baxımından tədqiqi belə bir nəticəyə gəlməyə imkan verir ki, ənənəvi geyim və bəzəklər, xalça məmulatları, qidalanma sistemi xalqın dünyagörüşü, dini inancları, ölkənin təbii şəraiti, tarixi mədəni-iqtisadi əlaqələri və baza dəyərləri haqqında zəngin mənbədilər. Onlar xalqın yüksək zövqünü, inkişaf etmiş sənətkarlıq və toxuculuq sənətinin olmasını göstərən mədəni irsdir. Maddi mədəniyyət nümunələrinin formaları, üzərindəki bəzəklərin, naxışların semantikası əsasında ibtidai dini

inanclar, tanrıçılıq, islam, soykökü ilə bağlılıq, təbii və coğrafi şərait, qonşu xalqlarla mədəni və siyasi əlaqələr, təsərrüfat həyatı, estetik və mədəni zövqü və s. haqqında məlumat əldə edə bilərik;

- Müasir dövrün iqtisadi-siyasi proseslərinin təsiri altında bu sahədə olan transformasiyanı açıq izləmək olar. Siyasi hadisələrlə hər bir dövrə uyğun dəyərlərin ortaya çıxması və müəyyən geyim formasının və elementinin mənəvi rəmzə çevrilməsi nəticəsinə gəlməyə imkan verir. Qarabağ müharibələri ilə Azərbaycan hərbi geyimi, Xarı bülbül xalqın Zəfər simvoluna çevrildi. Bu kontekstdə yeni mənəvi dəyərlərin yaranması prosesini izləyə bilərik;

- Qidalanma sisteminin mənəvi dəyərlər sistemində yerini müəyyən etmək üçün ənənəvi yemək və içkilərin, mərasim yeməklərinin, süfrə mədəniyyətinin dəyərlər baxımından araşdırılması xalqın milli xarakteri, dad və estetik zövqü, dini inancları, empirik bilikləri, tarixi-mədəni əlaqələri, təbiəti və s. haqqında təsəvvür yaratmağa imkan verir. Tədqiqat göstərdi ki, yemək və içkilərin adlarının soykökla, hətta bəzi hallarda dini inancla bağlılığının araşdırılması müasir dövrdə bəzi qonşuların onları öz milli yeməkləri kimi qələmə vermələrinə əsaslı faktlarla cavab ola bilər;

- Sovet hakimiyyəti illərində və hətta hazırkı dövrdə azərbaycanlılar üçün xarakterik olmayan yemək və içkilər, eləcə də süfrə mədəniyyətinin bəzi elementləri xalqın həyatına daxil olmuşdur. Bu proses mədəni təsirlər və qloballaşma nəticəsində baş vermişdir. Eyni zamanda, azərbaycanlıların milli mətbəxinin simvoluna çevrilmiş dolma, plov, paxlava, şəkərbura, ayran, çay onların milliliyinin, ənənəviliyinin göstəricisi kimi mənəvi əhəmiyyət kəsb edir. Müasir dövrdə bu sahədə də baş verən dəyişikliklərə baxmayaraq yemək və içkilərdə dini dəyərlər, halal-haram yanaşma hələ də qalmaqdadır. Bu yeməklər xalqın mədəni kimliyini, tarixi irsini və adət-ənənələrini təcəssüm etdirir;

- Ailə-məişət münasibətlərinin dəyərlər baxımından araşdırılması belə bir nəticəyə gəlməyə imkan verir ki, ailə dəyərləri istehsal və istehlak edən sosial institutdur. Toy və yas mərasimlərində ailədaxili münasibətlər, dini təsəvvürlər, empirik biliklər, soykökü ilə

bağlılıq, folklor, mifologiya, adət-ənənələr yaşadılır və xalqın milli identikliyini göstərir. Sovet hökumətinin milli siyasəti ənənəvi azərbaycanlı ailə dəyərlərində dəyişikliklərə müəyyən dərəcədə səbəb oldu. Müasir dövrdə ailədaxili münasibətlərdə, yas və toy adətlərində baş verən müəyyən dəyişikliklər isə ümumilikdə dünyada gedən proseslərlə əlaqəlidir. Ənənəvi azərbaycanlı ailəsi bu dəyişikliklərə də müqavimət göstərməyə çalışır. Beləliklə, insanların milli identikliyinə təhdid olduqda onların "öz mədəniyyətini" müdafiə etmək kimi reaksiyası ortaya çıxır;

- Azərbaycanlıların mənəvi dəyərlər sistemi tarixən təsdiqini tapmış dünyagörüşünün, sosial-siyasi proseslərin və s.-nin təsiri altında formalaşır. Məsələn, Xarı bülbül və Buta, Nar, Şəbəkə, xalq nağıl və rəvayətlərindəki, Ü.Hacıbəyovun operalarındakı personajları və s. təsvirlərinin çay və yemək dəstlərində də xalqın tarixiliyini göstərən rəmz kimi əks olunması halları geniş yayılmışdır;

- Maddi və mənəvi mədəniyyəti qorumaq, onun tarixinin təhrif olunmasının qarşısını almaq üçün tarixi-etnoqrafik mənbələrlə yanaşı, arxeoloji materiallara da müraciət etmək çox vacibdir. Yazılı və ya şifahi mənbələrin çatışmazlığı halında, antropoloji tədqiqatların aparılması vacibdir. Belə tədqiqatlar maddi mədəniyyət nümunələrinə, insanların gündəlik həyat tərzinə, adət-ənənələrə və sosial davranışlara əsaslanaraq keçmişi və mədəni prosesləri öyrənməyə imkan verir. Mənəvi dəyərlərin qorunması xalqın etnotarixi, soykökü ilə əlaqənin qırılmaması kimi təbii tələbatın ödənilməsi üçün vacibdir;

- Tədqiqat göstərir ki, mənəvi dəyərlər müxtəlif dövrlərdə müxtəlif amillərdən təsirlənə bilər. Məsələn, dini inanclar, iqtisadi və siyasi dəyişikliklər kimi faktorlardan asılı olaraq, cəmiyyətdə mənəvi dəyərlər dəyişə və yeni dəyərlər formalaşa bilər. Bu, mədəniyyətin dinamik və zamanla inkişaf edən bir proses olduğunu göstərir. Lakin, buna baxmayaraq, mənəvi dəyərlər zamanın sınağından keçərək xalqın dəyərlər sistemində möhkəmlənir və onun baza dəyərlərinə çevrilir. Tarixi proseslərin təsirinə baxmayaraq, bəzi baza dəyərləri, məsələn, xalqın dünyagörüşü, etnik xarakteri və ailə-məişət münasibətləri kimi sahələrdə ənənəvilik qorunub saxlanmışdır və i.a.

Eyni zamanda aşağıdakı bəzi praktiki tövsiyələrimizi də bildirməyi vacib sayırıq:

- İlk növbədə milli-mənəvi irsin qorunub saxlanmasının hüquqi-normativ bazası yaradılmalıdır;
- Təhsildə müvafiq fənnlərin tədirisi, bayram festivallarının, konfransların, elmi seminarların təşkili nəzərdə tutulmalıdır;
- Xalqın gələcəyi olan gənc nəslin milli-mənəvi dəyərlərə əsasən tərbiyə olunmasında xüsusi bayram günlərində bölgələrdə təşkil ediləcək bayram şənliklərində iştirakını təmin etmək vacib rol oynaya bilər;
- Hazırda bütün informasiyanın əsasən internet, KİV vasitəsilə ötürüldüyünü nəzərə alaraq mədəni irsin, əsasən də, milli-mənəvi dəyərlərin qorunmasında mühüm rol oynayan ənənəviliyin və müasirliyin müsbət tərəflərini özündə birləşdirən ailə dəyərlərinin təbliği üçün bu aspektdə verilişlərə daha çox üstünlük verilməsi məqsədyönlü olardı və s.;
- Milli-mənəvi dəyərlərin tarixini və əhəmiyyətini əks edən elmi və populyar kitabların nəşri dəyərlər haqqında biliklərin genişlənməsinə və təbliğinə töhfə verə bilər;
- Multidisiplinar tədqiqatların - etnoqrafların, folklorşünasların, tarixçilərin, arxeoloq və antropoloqların birgə səyləri ilə milli-mənəvi dəyərlərin köklərini və inkişafını öyrənən araşdırmalar təşviq edilməlidir;
- Maddi və mənəvi mədəni irs, məsələn, ənənəvi yemək və içkilər, geyim və bəzək əşyaları və ənənəvi sənətlər diqqətlə sənədləşdirilməli və təbliğ olunmalıdır. Bunun üçün xüsusi arxivlərin yaradılması, sərgilərin təşkili və onların mədəniyyət təhsilinə daxil edilməsi kimi tədbirlər həyata keçirilməli, onların gələcək nəsillərə ötürülməsi təmin edilməlidir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı əsərlərində öz əksini tapır**

1. Nuruzadə, Ş. Müasir Azərbaycan şəraitində dövlət və din münasibətlərinin əsas xüsusiyyətləri. // - Bakı: Azərbaycan arxeologiya və etnoqrafiyası problemləri, - 2011, II hissə. №, 2- s. 180-186
2. Nuruzadə, Ş. XX əsrin 20-30-cu illərində Azərbaycanda müridiliyə qarşı mübarizə // I Beynəlxalq Həmzə Nigari Simpoziumu: "Qarabağdan Amasiyaya Könül Körpüsü, - Amasya: - 2012, 31 may- 3 iyun, - s. 345-352
3. Nuruzadə, Ş. Müasir dövrdə Azərbaycanda qloballaşma prosesləri və milli-mənəvi dəyərlər // Azərbaycanşünaslığı aktual problemləri: "Ümummilli Lider Heydər Əliyevin 90 illik yubileyi"nə həsr olunmuş IV Beynəlxalq elmi konfransın materialalrı", - Bakı: - 1-4 may – 2013, - s. 455-456.
4. Nuruzadə, Ş. Müasir dövrdə Azərbaycanda dini abidələrin mühafizəsində dövlət siyasəti // VIII. Uluslararsı Türk Kültürü, Sanatı ve Kültürel Mirası Koruma Sempozyumu / sanat etkinlikleri, - Konya: - 15-16-17 mayis, - 2014, - s. 873-878.
5. Nuruzadə, Ş. Müasir dövrdə Azərbaycanda dini vəziyyət // - Bakı: Pedagoji Universitet Xəbərləri, Humanitar elmər bölməsi, - 2014. № 4, - s. 179-184.
6. Nuruzadə, Ş. Azərbaycan Respublikasının Konstitusiyasında dövlət-din məsələləri. Azərbaycanşünaslığın aktual problemləri "Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş V Beynəlxalq elmi konfransın materialları", - Bakı: - 05-07 may, - 2014, - s. 547-550.
7. Nuruzadə, Ş. Milli-mənəvi dəyərlərə nəzəri yanaşmalar // - Bakı: Tarix və onun problemləri: nəzəri, elmi, metodik jurnal, - 2015. №2, - 246-254.
8. Nuruzadə, Ş. Milli-mənəvi dəyərlərin qorunmasında etnoqrafik muzeylərin rolu // Görkəmli taixçı-alim S.Aşurbəylinin anadan olmasının 110 illik yubileyinə həsr olunmuş "Azərbaycan

tarixinin öyrənilməsində muzeylərin rolu” VI Respublika elmi konfransının materialları, - Bakı: - 23 iyun, - 2016, – s. 285-298.
9. Nuruzadə, Ş. Azərbaycan Respublikasının milli mədəni irsin qorunması siyasəti // - Bakı: Journal of Qafqaz University – History, law and political sciences, - 2015. № 2, – s. 160-169.
10. Нурузаде, Ш. Сохранение нематериального культурного наследия в Азербайджане в условиях глобализации // - Москва: Альманах «Этнодиалоги, - 2015. №2 (49), - с. 75-82.
11. Nuruzadə, Ş. Azərbaycan Respublikasının multikulturalizm siyasəti və milli-mənəvi dəyərlərin qorunması // - Bakı: Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, - 2015. - №3 (51), - s. 113-118.
12. Nuruzadə, Ş.T. Azərbaycanda ənənəvi bayramlar xalqın milli-mənəvi dəyərləri sistemində // - Bakı: Azərbaycan arxeologiyası və etnoqrafiyası, - 2015. - № 2, – s. 209-214.
13. Nuruzadə, Ş.T. Etnik münaqişələr / Ş.Nuruzadə - Bakı: Mütərcim, - 2015. - 132 s.
14. Nuruzadə, Ş.T. Müasir azərbaycanlı ailəsində milli-mənəvi dəyərlər // - Bakı: Azərbaycan arxeologiyası və etnoqrafiyası, - 2015, - № 1, - s. 182-188.
15. Nuruzade, Sh. Religious views in modern Azerbaijan // - Taraz: İnternational Scientic Journal “Theoretical & Applied Science” – 2016. № 11 (43) - p. 151-157.
16. Nuruzadə, Ş. Azərbaycanlıların ənənəvi geyimlərində milli-mənəvi irsin əksi // - Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İctimai elmlər seriyası, - 2016. № 2, – s. 201-208.
17. Nuruzadə, Ş. Azərbaycanlıların islamaqədərki inamları milli-mənəvi dəyərlər sistemində // - Bak: Milli Azərbaycan tarixi muzeyi, - 2016. s. 364-373.
18. Nuruzadə, Ş. Azərbaycanlıların məişətində xalça və xalça məmulatlarının yeri // Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin “Xəbərlər”i, İctimai və humanitar elmlər seriyası, - 2017. № 3, Cild 13, - s. 161-168.

19. Nuruzadə, Ş. Cənubi Qafqazda etnokonfessional vəziyyət // Qafqazşünasların I Beynəlxalq forumu: Elmi məruzələr, - Bakı: - 17-18 aprel, 0 2017, - s. 413-420.
20. Nuruzadə, Ş. Multikulturalizm və etnik amil // - Bakı: Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, - 2017. № 2 (58), - s. 184-190.
21. Nuruzadə, Ş. Azərbaycanın işğal olunmuş ərazilərində mədəni irsin qorunmasının hüquqi əsasları // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş VIII beynəlxalq konfransın materialları “Azərbaycanşünaslığın aktual problemləri”, - Bakı: - 4-5 may – 2017, - s. 427-429.
22. Nuruzadə, Ş. Arxeoloji irs milli-mənəvi dəyərlər sistemində // - Bakı: Azərbaycan arxeologiyası, - 2018. № 2, - s. 110-118.
23. Nuruzadə, Ş. Azərbaycanlıların Ermənistan ərazisindən deportasiyasının mədəniyyət abidələrinin vəziyyətinə təsiri // Respublika Elmi Konfransı: “Qafqazda deportasiyalar”, - Bakı: - 29 noyabr, - 2018, - 128-129.
24. Nuruzadə, Ş. Azərbaycanlıların yas adətləri ilə bağlı bəzi inancları mənəvi dəyərlər sistemində.// - Bakı: Milli Azərbaycan Tarix Muzeyi, - 2018. s. 252-262.
25. Nuruzade, Ş. Halkın milli manevi değeri olarak azer-baycanlıların geleneksel düğün töreni. Kültür Evreni-Unıverse Culture-Мир Культуры / - Kars: 2018 - № 35. S. 64-77.
26. Nuruzade, Ş. Azerbaycanlıların geleneksel aile degerleri ve çağdaş zorluları // - Ankara: II. Uluslararası insan hakları sempozyumu. Ailenin korunması hakkı, - 2019 / aprıl 29-30 2019. – s. 614-634.
27. Нурузаде, Ш. Религиозный фактор в формировании мировоззрения азербайджанцев // - Москва: Вопросы истории, - 2019. № 12 (4), - с. 188-193.
28. Nuruzadə, Ş. Qafqaz xalqlarının dünyagörüşündə ağac ayini // Qafqazşünasların II Beynəlxalq Forumunun materialları, 2-ci kitab, - Bakı: - 23-24 may, - 2019, – s. 523-528.
29. القيم العائلية التقليدية والتحديات المعاصرة للأذربيجانيين. Nuruzade Ş.IJTIHALD Journal On Legal and Economic Studies ISSN:

2333-9331. Volume: 08 Number: 05 Year 2019, - № 08, Number. - P 08-36.
30. Nuruzadə, Ş. Novruz adət-ənənələri (Cəbrayıl rayonu və Naxçıvan materialları əsasında) // - Naxçıvan: Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Elmi əsərləri, - 2019. № 3, – s. 94-103.
31. Nuruzadə, Ş. Qarabağ müharibələrində Azərbaycan xalqının mənəvi dəyərlərinin təzahürü // İkinci Qarabağ müharibəsi yeni nəsil müharibə kimi. 44 günlük Vətən Müharibəsində qazanılan qələbənin ildönümünə həsr olunmuş beynəlxalq elmi-praktik konfransın materialları, - Bakı: - 21–22 oktyabr, - 2021, - s. 315-317.
32. Nuruzadə, Ş. Qarabağ müharibələri və Bozqurdlar // - Ankara: Bilimsel Eksen, - 2021. № 2, - s. 50-62
33. Нурузаде, Ш. Шариат и его место в повседневной жизни азербайджанцев. // Сборник научных трудов по материалам Международной научно-практической конференци «Развитие правовых систем России и зарубежных стран: проблемы теории и практики», - Москва: - 5 апреля, - 2021, - с. 213-218.
34. Nuruzadə, Ş. Milli geyimlər xalqın etnomədəni irsi kimi (Naxçıvan və Azərbaycanın digər bölgələrinin materialları əsasında) // - Naxçıvan: Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Elmi əsərləri, - 2022. № 1, – s. 114-119.
35. Нурузаде Ш. Пропаганда и формирование «советских ценностей» в годы советской власти в Азербайджане. //The Caucasus and the world. – Tbilisi: - 2022. № 24, - с. 139-145.
36. Nuruzade Sh/ حماية حقوق الطفل في أذربيجان والقيم الأخلاقية الوطنية (Protection of children's rights in Azerbaijan and national moral values) // The legal system for the protection of orphans of unknown parentage in Algeria, may 2022, - pp. 331-337.
37. Nuruzadə Ş.Azərbaycanda müstəqillik illərində ənənəvi dəyərlərə qayıdış prosesi // 2. Uluslararasi Balkanlar, Anadolu, Kafkasya Ve Türkistan Coğrafyasi Sanat, Kültür, Tarih Ve

Folklor Kongresi, “Prof. Dr. Ali RECEBLİ Armağanı (In Honour of Prof. Dr. Ali RECEBLİ armağanı)”, 09-12 Mayıs, 2022, Aydın-Türkiye. – s. 189-192

38. Nuruzadə Ş.Azərbaycan xalqi üçün erməni işğalindan azad edılmış torpaqların mənəvı dəyərı // 17. Uluslararası Türk Sanatı, Tarihi Ve Folkloru Kongresi/Sanat Etkinlikleri. “Akademik Naile VELİHANLI Armağanı, 05-07 Eylül (September) 2023, Bakü - Azerbaijan. - s. 213-216.
39. Nuruzadə Ş. Şuşa şəhər məscidlərinin Azərbaycan xalqı üçün mənəvi dəyəri. // Şuşa şəhəri: Azərbaycan mədəniyyəti Qafqaza və dünyaya. – Bakı: - 1 noyabr 2023, - s. 54-55.
40. Nuruzadə Ş. Xudafərın körpülərının Azərbaycanlıların mıllı-mənəvı dəyərlər sıstemındə yerı // 3. Uluslararası Balkanlar, Anadolu, Kafkasya Ve Türkistan Coğrafyası Sanat, Kültür, Tarih Ve Folklor Kongresi/Sanat Etkinlikleri. - 24-25-26 Ekim/October 2023, Aydın-Türkiye. - s. 201-205
41. Nuruzade Ş. Azerbaycanlıların Geleneksel Manevı Değerler Sıstemınde Kadın/Anne Imajı // International Turkic World Congresson Social, Humanities, Administrative and Educational Sciences Proceedings Book, January 11-13 2024, Baku, Azerbaijan. - s. 727-731.
42. Нурузаде Ш. Традиционные ценности азербайджанцев в контексте этнокультурных и этносоциальных процессов // “Tarixiy Obyektlar Va Tabiiy Maskanlar Uyg‘Unligi Asosida O‘Zbekistonning Turistik Salohiyatini Rivojlantirishning Asosiy Yo‘Nalishlari Va Istiqbollari” Mavzusidagi Xalqaro Ilmiy-Amali Konferensiyasi Maqolalari To‘Plami, 17 aprel 2024, Toshkent – s. 436-442
43. Nuruzade Sh. Tengrism In the System of Spiritual Values of Azerbaijanis // 10th International EMI Entrepreneurship & Social Sciences Congress, 10-13 September 2024, Targoviste / Romania. – p. 446.

Dissertasiyanın müdafiəsi 09 yanvar 2025-ci il tarixində saat 10^00 Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ-1073, Bakı şəhəri, H.Cavid prospekti, 115.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 6 dekabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 02.12.2024

Kağızın formatı: A5

Həcm: 90157

Tiraj: 100